**Sevgi üçbucağı**

«168 saat»ın «Talelər» rubrikası üçün bu dəfə taleyini bizə Ramin adlı bir gənc danışdı. Bu yazıda onun qəribə həyatından söz açacağıq. Bu həyatda hər şey var: enişlər, yoxuşlar... Sevinc dolu anlar, sarsıntılar... Ümid seli və ümidsizlik qəbiristanlığı... Bu həyatda Anar adlı bir rəqib də var.
Və bu həyatda, həm də Nərmin adlı məsum bir qız da mövcuddur. Raminin həyatında indi tək bir qız – Nərmin olduğu halda Nərminin həyatında iki oğlan var: Anar və Ramin. Anar onu Mələk adlandırır, Raminsə Nina.
Anar və Ramin arasında Nərminin ürəyini fəth etmək üçün amansız çırpışma gedir. Onlar bir-birilərini fiziki cəhətdən məhv etmək dərəcəsinədək düşmənçilik edirlər. Nərminin ürəyindən də belə bir amansız çırpışma gedir. Anar, yoxsa Ramin...
Öncə Anar gəlmişdi, sonra Ramin gəldi. Başlayaq öncədən...

«... Ağıl, məntiq, düşüncə, iradə, əxlaq, gözəllik, qürur, şərəf, mənlik – ideal insan hisslərinin bütün çalarları. Allah ondan heç nəyi əsirgəmədi və o da öz üzərinə düşən öhdəlikləri layiqincə həyata keçirməkdədir. O, yaşamır, yaşamağı öyrədir. Allah onu yaratdı ki, bir çoxlarını örnək olsun. Öz füsünkarlığı, əsrarəngizliyi ilə, ən əsası da, ağılı, kamalı ilə.
Həmişə belə qal, Nərgiz.
Sən bəzən mənə yad, bəzən də doğma olursan. Amma yad olanda belə doğma olduğunu gizləyə bilmirsən...
Mənim  Nərgizim... Mənim qara-boz həyatımı ən al-əlvan rəng çalarları ilə zənginləşdirən tale rəssamım...».
Bu etirafı Ülvi Nərgizlə tanış olduqdan az sonra etmişdi...

PROLOQ
Dünən sənin telefonun öldü: Ölən yalnız adamlar olmur ki, telefon nömrələri də ölür. Ömrü boyu çox rəqəmlər unudacaqsan: Pasportunun nömrəsini, dostunun telefon nömrəsini, aya qədər olan məsafəni, yaşadığın şəhərin əhalisinin sayını, başqa rəqəmləri – hamısını unudacaqsan. Bircə bu 7 rəqəmdən savayı. Bu 7 rəqəm, özü də mənə bu ardıcıllıqda sənin üçün ən əziz hədiyyə idi. 7 rəqəm, onun səsi və dəstəkdən gələn bənövşə ətri.
Bəzən mən telefonu elə qaldırırdım ki, sanki röyalın qapağını qaldırırdım. Bəzən bu telefon dəstəyini elə qoyurdum ki, elə bil tabutun qapağını bağlayırdım.
İndi bu nömrə yoxdur. Yox, əslində var, ama mənimçün yoxdur. Mənimçün bu nömrə indi yasaq ərazidir. Barmağımın altında, telefon nömrələrində yerləşən 7 rəqəm indi mənim üçün keçilməz bir məsafədir, kilometrdir, uzun bir yoldur. Mən bu məsafənin 5-dən 4-nü keçə bilərəm, 6 rəqəmi yığa bilərəm. Amma heç vaxt son rəqəmi - 7-cini yığa bilməyəcəm. Sənin nömrən bağlı qapıdır, açarını itirmişəm.
Səni görməyə də bilərdim. Zəng edirdim, səsini eşidər və deyərdim, - sənə nə olub.
Səni görməyə də bilərdim, amma məsafədən belə duyurdum. Sahil kəndlərinin sakinləri dəniz görməyəndə belə duyduqları kimi. Bala bir quş gözləri görməyə-

görməyə uzun bir məsafədən anasını hiss etdiyi kimi səni həmişə hiss edəcəm.
Amma heç vaxt... heç vaxt... heç vaxt...
Toxuna bilməyəcəm.

*Anar «Mən, sən, o və telefon» hekayəsindən...*

**1-ci hissə. Anar**

Adım Anardır. 23 yaşım var. Həm bütün tay-tuşlarım kimiyəm, həm də onların hamısından fərqliyəm. Fərqlərim çoxdur, xasiyyətimin çox qəliz olmasını söyləyir doğmalarım, məni tanıyanlar. Ancaq fərqlərimin ən əsası bu deyil. Məni tay-tuşlarımdan fərqləndirən ən başlıca cəhət odur ki, mən Nərmini, «Mələk» adlandırdığım bu fövqəladi insanı tanıyıram. Qələmin mürəkkəbliyinə səmimiliyimi qatsam, onun haqqında qələmin vərəq üstündə həkk etdiyi ilk söz bu olar: «onu tanımıram». Axı necə tanımaq olar daim dəyişən, təkmilləşən, gözəlləşən birini, hərdən özündən razı olan, özünü çəkən, utopiyalardan kənar realist birini? Düşüncə selinə malik olan bu qızı tam tanımaq məgər mümkündürmü? Çoxcildlik bir kitabdır sanki o. Amma bu kitabı o hamıdan gizlin saxlasa da, kitab rəfinin ən hündür qatında əlçatmaz bir yerdə gizləsə də, ona həsəd aparan, onun yaxınlığına nail olmaq üçün yüzlərlə pərəstişkarından qoruyub saxlasa da, tək məndən gizləmir. Məndən, bir də Ramin adlı birisindən...
Çox xoşbəxtəm ki, onun ürəyini ilk fəth edən məhz mən olmuşam. Çox xoşbəxtəm...

***

2009-cu ilin oktyabr ayının 8-i idi. Mən qiyabiçi tələbəyəm, kollecdə oxuyuram. Qrupa daxil olanda gözümə bir qız sataşdı. Dərhal içimdə məhrəm, ılıq hisslər baş qaldırdı. Çox gözləyə bilmədim, elə ertəsi gün söz göndərdim, ondan xoşum gəldiyini bildirdim. Adı Əminə idi qızın. Amma bunun qarşılığında «sevdiyim oğlan var» söyləyib Əminə mənə rədd cavabı verdi. Təbii ki, centlimenlik edərək üzr istədim və onu bir daha narahat etməyəcəyimi söylədim. Üstündən bir müddət keçdi. Dekabr gəldi, artıq havalar soyumuş, ilin son günləri şaxta-sazağı ilə sanki dayanıb durmaq, vida anlarını uzatmaq və ən əsası da, getməsinin, qeyb olmasının hayıfını çıxmaq istəyirdi. İçimdə bir ölgünlük, boşluq var idi. Arabir onu görür, üzümü yana çevirib keçib gedirdim. Amma fikrimdə, xəyalımda həmişə o idi. Onu heç cür unuda bilmirdim...
Dekabrın 20-də Azər adlı qrup yoldaşım zəng edib bildirdi ki, Əminə mənim nömrəmi istəyir. Həyəcan qarışıq sevinc hissi içimə dolub bütün varlığımı əsir elədi. İnanmayırmış kimi bir də ona bu sözləri təkrar elətdirdim.
- Əminə deyir ki, Anarın nömrəsini mənə ver...
Dilim topuq vura-vura «... əlbəttə ver» sözlərini söylədim. Əminə zəng vurdu, mənə simpatiyası olduğunu bildirdi, dost olmağımızı təklif etdi. Həm də etiraf etdi ki, sevdiyi yoxdur. İlk tanışlıqda yalandan mənə guya sevdiyi oğlan olduğunu bildiribmiş...
Və beləcə dostluğumuz başladı. Biz kollecdən kənarda görüşür, daha çox parka gedir, bir-birimizi tanımağa çalışırdıq. Zarafatlaşır, deyib-gülür, telefonlarımıza

şəkil, musiqi göndərirdik. Qış vaxtı boşalmış parkdakı görüşlərin ən böyük özəlliyi o idi ki, biz tam sərbəst olurduq, ətrafda heç kim olmur du. Bir dəfə əlindən tutmaq təmasından başlayıb ta ki, odlu yanaqlarını öpmək yaxınlığınadək yaxınlaşmışdıq...
Butün qrup qızları mənim Əminəni sevdiyimi bilirdilər. Nərmin adlı bir qız – Əminənin rəfiqəsi isə bizim yaxınlaşmağımıza, mehriban olmağımıza xüsusi canfəşanlıq göstərirdi. Onlar bir parta arxasında otururdular. Nərmin dururdu ki, mən Əminəylə oturum...
Nərminlə tez-tez ünsiyyətimiz yaranırdı... Bir də gözlərimi açıb gördüm ki, mən Nərminlə də dostlaşmışam...
Əminə ilə tez-tez sözümüz çəp də gəlirdi, bəzi məqamlarda bir-birimizi başa düşmürdük. İçimdəki ideal qız obrazının Əminəyə uyğun olmadığını get-gedə daha dərindən hiss edirdim. Beləcə, ondan soyuduğumu duyurdum. Ondan soyuduqca isə, Nərminə meylim daha da artırdı. Bu qürurlu, oğlanlarla ünsiyyətdən qaçan gözəl-göyçək qıza içimdə çox böyük istək baş qaldırmışdı. Onu günü-gündən daha çox istəməyə başlayırdım... Əlbəttə, bu sualı bax indi, 2011-ci ilin iyununda öz-özümə verəndə, dərhal da cavabım sıraya düzülmüş hərf və sözlərin cümlə sadalaması şəklində əzbər, birnəfəsə söylənilir:
- Mən Nərmini niyə çox istədim?! Çünki o qızda heç bir qızda görmədiyim xüsusiyyətləri gördüm. O qızda saflıq, paklıq, təmizlik, sadəlik, mehribanlıq, gülərüzlülük, ürəyiaçıqlıq və ərköyünlük gördüm. Çox duyğusal biri idi. Həm də həddindən artıq gözəl idi. Hündür boyu, iri yanaqları, yekə gözləri var idi. Bu gözəllikdə bir qızın indiyədək həyatında oğlan olmaması mənə maraqlı gəlirdi. Mənim qarşıma çox qız çıxıb, çox qız görmüşəm, bu qızların içində elə birisi olmayıb ki, keçmiş həyatında oğlan olmasın. Hamısı həyatlarında kiçik də olsa, oğlana aid bir parça, nəsə yaşamışdı. Mən fikirləşirdim, görəsən, elə bir qız olacaq ki, onun həyatında oğlan olmasın, onun oğlanlara qarşı simpatiyası yox, antipatiyası olsun. Sonda Nərminlə rastlaşdım və bunları Nərmində gördüm. Onu o qədər çox istədim ki...
Bu aralar Əminə ilə də danışırdım. Sadəcə, dost kimi. Amma Nərgizlə Əminənin arası dəymişdi. Aralarında söz-söhbət olmuşdu və bunlar küsmüşdülər. Bir-birilərinə qarşı prinsipləri var idi.
İllər dəyişdi, yeni il gecəsində həm Nərmini, həm Əminəni ürəkdən təbrik edib həyatımın bir parçası olan bu iki qızla 2010-cu ilə daxil oldum.
Yanvarın 3-də Əminəylə yenicə telefonla danışıb xudahafizləşmişdik ki, telefonuma zəng gəldi. Bir oğlan məni söhbət eləməyə çağırırdı. Mən də tərəddüd etmədən gələcəyimi söylədim. Görüş «Qurd qapısı»nda saat 21.00-da baş tutdu. Məndən Əminədən ayrılmağımı istədi və mən təbii ki, «yox» dedim. Oğlanın kim olduğunu soruşdum. Əminənin sevdiyi oğlanam, - dedi. Buna inanmadım. Əminəyə zəng edib bunun doğru olub-olmadığını öyrəndim. Doğru idi. Əminənin sevdiyi oğlan var imiş. Amma mənə deməmişdi. Bu məni çox incitdi. Dilxorçuluq içində «Qurd qapısı»nı tərk etdim. Və qərar verdim ki, Əminəni həyatımdan silim. O gündən sonra Nərminə daha çox bağlandım, onu daha çox istədim. Həyatda hər kəsdən, hər şeydən çox istədim. Hər gün 6-7 saat telefonla danışırdıq. O qız heç vaxt çölə çıxmırdı. Çünki o təmiz ev tərbiyəsi görmüş bir qız

idi. Mən ona çox demişdim, təklif etmişdim, çıxaq gəzək. Amma bunun mümkünsüz olduğunu bilirdim. Nəisə... Biz hər gün danışırdıq.
Mən onunla çox xoşbəxt idim...
Bəzən biz xoşbəxt olduğumuzu hiss etmədən xoşbəxtlik içində yaşayırıq. Ona görə də belə günlərimizin qədrini bilmirik...
Nərminlə xoşbəxt idim. Amma Əminəni də ürəyimdən çıxara bilmirdim... Hisslər ürəyimin bir küncünə sıxılıb qalmışdı, sən demə...
Növbəti dərs ilində Əminəylə yenidən barışdıq. Yenə əvvəlki yaxınlığımız bərpa olundu. Özümdən asılı deyildi, sanki bir maqnit cazibəsi ilə bu qız məni özünə çəkirdi... Tənəffüslərdə baş-başa verir, kollecin həyətində gəzişir, bütün günü SMS-ləşirdik. Çox önəmli park gəzintiləri də öz yerinə qayıtmışdı.
Bu, Nərminə çox pis təsir edirdi, onun xətrinə dəyirdim bu hərəkətimlə. Nərmin məni qısqanırdı, Əminəylə düşmən olduğu səbəbindən isə mənim belə etməyim onu cızığından çıxarırdı. O, hər gün məndən tələb edirdi, ki Əminədən ayrılım.
Nəhayət, oktyabrın 11-də qəti olaraq qarşıma şərt qoydu:
- Ya mən, ya o.
Mən çox çətin bir durumda qaldığımı etiraf etdim, seçim etməkdə çətinlik çəkdiyimi bildirdim. Belə olanda Nərmin öz qərarını verdi. Və məndən ayrıldı...

DOSYE. NƏRMİN
1992-ci ildə Bakıda anadan olub.
1998-ci ildə Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsində yerləşən 282 saylı orta məktəbə daxil olub. 2009-cu ildə həmin məktəbi bitirib. Elə həmin il İqtisad Universitetinə qəbul olmaq arzusu ilə sənədlərini II qrupa verib, təəsüflər olsun ki, testdən keçməyərək Abşeron rayonu, Xırdalan şəhərində yerləşən Humanitar və İqtisad kollecinə daxil olub. Hal-hazırda həmin kollecin tələbəsidir. Qiyabiçidir.
Ailələri 4 nəfərdən ibarətdir: atası, anası, qardaşı və özü.
Subaydır, heç bir yerdə işləmir.
Xobbisi – gəzmək, musiqi dinləmək, yeni-yeni geyimlər almaq.
Vurduğu ətir – «Versage».
Arzuladığı şeylər – maşın sürmək, cins itə sahib olmaq, səfərə çıxmaq – Londonu, Parisi, İstanbulu gəzmək.
Xasiyyəti – duyğusal, ərköyün, inadcıl
Ən pis xüsusiyyəti – insanlara tez inanması.

NƏRMİNİN BÜRCÜ
Xərçənglə ilk söhbətə başlamaq üçün, öncə ona məsləhət almaq məqsədilə müraciət edin. Xərçəng ürəkdən, canbaşla cavab verəcək. Amma nəbadə söhbətə «mən sizi hardasa görmüşəm» - ilə başlayasınız. Onların çox gözəl yaddaşları var. Həmsöhbətiniz qadın Xərçəngdirsə, onda siyasət, incəsənət və ümumi tanışlardan söhbət açın.
Xərçənglərlə səmimi söhbət zamanı onların şəxsi problemləri haqqında danışmayın. Bir anlıq onlar sizə bütün problemləri, sirrləri haqqında danışa bilərlər. Çox keçmədən, yeni tanışla bu qədər səmimi danışdıqları üçün peşman

olacaqlar. Sizə münasibətləri dəyişə, hətta sizdən yan da gəzəcəklər. Mütləq onların etibarını qazanmalısınız.
İlk görüşü teatra və konsertə təyin edin. Xərçənclər romantik musiqiyə çox həssasdırlar. Əgər xərçənglərə hədiyyə almaq istəsəniz, onda evdə istifadəyə lazım gələn əşyaları seçsəniz, yaxşı olar. Çərçivəli şəkillər, mətbəx ləvazimatları və s. Xərçənglər kolleksiya toplamağı xoşlayır. Hansı əşyalarının çatışmadığını bilib, məhz ondan alsanız, Xərçəngin ürəyincə olar, ona dünyanı bağışlamış olarsınız. Marka, kibrit qabı onlar üçün qızıl qədər qiymətlidir. Gümüş-zinət əşyalarını sevirlər. Mücrü də alıb hədiyyə etsəniz, siz onların ürəyini fəth etmiş olarsınız. Xərçənglər analarına qarşı çox mehriban olurlar, özləri də xüsusi diqqət və ehtiram istəyirlər. Xərçənglərlə münasibətdə bunu da unutmayın ki, onlar laqeydliyi, diqqətsizliyi sevmirlər.

**2-ci hissə. Anar**

... «Sən o qədər içdən, o qədər səmimisən ki, sanki içində heç bir pislik və ağırlıq yoxdur. Məni ən çox narahat edən tərəfin sakit, rahat, sanki yüz il belə qalmağa hazırmış kimi yorulmayan baxışların və səs tonundur. Sənin yanında insan hönkürüb ağlaya biləcək qədər özünü rahat hiss edir. Nərgiz, sən insan qəlbini dolayısı ilə çox gözəl dərk edir, həyatı dərindən anlayırsan. Sən hər şeyi hiss edir və etdirə biləcək qədər gücə maliksən.
İlk baxışdan özündən razı, eqoist, amma tanıdıqca tam əksi olduğunu anladığım birisən, dəyişkən olduğun qədər sadiq birisisən. Hamıya bənzədiyin halda, eyni zamanda heç kimə bənzəməyən birisisən. Anladığım və hələ də anlaya bilmədiyim birisisən. Tanıdığım və hələ də tam tanıya bilmədiyim birisisən.
Sanki bir mələksən, göydən yerə enmisən. Yox, sən əslində Nərmin yox, elə Mələksən. Mənim Mələyim...».

***

İndi o həyatımdan çıxmışdı. Dərin ifadəli gözlərində kədər sezilirdi həmişə... Əminə iləsə münasibətlərim get gedə dərinləşirdi. Bir gün Əminənin nişanlanması xəbərini eşitdim. O sevişdiyi oğlana yox, başqasına nişanlanmışdı... Demək, həyatında məndən başqa, azı 2 nəfər də olub? Əslində, bu, mənə ondan ayrılmaq üçün növbəti bəhanə olmalı idi. Bununla belə, əlaqəmizi yenə də kəsmədik. Nərmindən fərqli olaraq Əminə ilə münasibətlərim söhbət və SMS-lərlə məhdudlaşmırdı. Biz görüşür, gəzməyə çıxırdıq. Sadəcə, indi sevgililər kimi yox, dostlar kimi edirdik hər şeyi. Nişanlı olduğu, başqasına məxsusluğu səbəbindən ona başqa gözlə, başqa fikirlə baxmırdım, dostluğumuza xəyanət etmirdim. Onu çox istəyirdim, o da məni çox istəyirdi. Həm də lap çox. Çətin anlarımda yanıma gəlir, həmişə mənə dəstək olurdu...
Nərmin... O bakirə, o gözəl varlıq... Bir gözüm Nərmində qalmaqda idi. Ürəyim, hisslərim, duyğularım Nərminlə idi. Küsülü olsaq da, onun həyatından qopa bilmir, daha doğrusu, bunu istəmirdim. Heç bir oğlanı ona yaxın buraxmırdım. Nə vaxt eşidəndə ki, kimsə ona sataşır, ya arxasınca gəlir, həmin oğlanları tapıb onlarla dalaşırdım. Onu istəyən olanda da araya girir, buna yol vermədən «o qız

mənlikdir» söyləyirdim... Özüm o son söhbətdən sonra Nərminə yaxınlaşmağa risk eləmirdim. Amma ürəyimdə nəsə bir inam var idi ki, biz barışacağıq. Nəsə olacaq, hansısa xoş təsadüf bizi yenidən birləşdirəcək. O xoş təsadüfü çox gözləməli olmadım...
Tanışlığımızdan bir il keçmişdi artıq, növbəti il qovuşuğu qapının kəndarında idi: 2010-cu il dekabrın 12-də kollecin bufetində Nərmini görəndə sanki ürəyim qopub ayağımın altına düşdü... Nərmin o qədər gözəl, o qədər sevimli və o qədər doğma idi ki. Ona yaxınlaşa bilmədim, onunla kəlmə kəsmək xoşbəxtliyinə «tabu» qoyduğum üçün peşiman-peşiman ona tərəf baxdım. Və o... Gözləmədiyim halda mənə yaxınlaşıb portağal təklif etdi. İlk öncə etiraz etdim, amma təkidini görüb götürdüm. Çox həyəcanlı idim. Və həm də çox xoşbəxt idim...
Beləcə biz barışdıq.
Və elə növbəti gündə Nərmin ambisiyasını ortaya qoyub yenidən məndən Əminə ilə ayrılmağımı tələb etdi. Nərmini çox istəyirdim, ondan ayrı qala bilməzdim, bu şəksiz idi. Ancaq Əminəni də axı, Nərmin qədər olmasa da, hər halda çox istəyirdim. Necə ayrıla bilərdim ondan? İki odun arasında qalmışdım, bilmirdim nə edim.
Nərmin təkid edir, dirəniş göstərirdi. Dərhal Əminədən ayrılmağımı təkidlə tələb edir, əks halda, bir də heç vaxt mənimlə barışmayacağını dilə gətirirdi. Mən azacıq düşünüb Nərmini itirməmək üçün onu aldatdım, Əminəni atacağımı söylədim. Bununla da, Əminə ilə münasibətləri gizli müstəviyə keçirdim. Yenə görüşür, SMS-ləşirdik, amma indi Nərmindən gizlində qalırdı hər şey.
Əminədən isə Nərminlə barışdığımı gizlətməli olmuşdum. Beləcə, ikili oyun oynamaqla idim. Halbuki, özüm də çox gözəl bilirdim ki, bu oyunun sonu yoxdur, gec-tez yalanlarımın üstü açılacaq...

II hissə
3-cü bölüm. Anar

«Sənin sadəliyin sənin özünsən, sənin daxilindir, kövrəkliyindir, tənhalığındır. Sən özünü səmimiliyinlə tanıtdırdın, sevdirdin. İstərdim həyatda ağ-qara rənglərə öz həyatsevərliyin ilə vurduğun rəngarənglik palitrası heç vaxt səndən əskik olmasın. Səninlə yanaşı olmaq bir yana, sənin adicə varlığını hiss etmək belə həyatda hər şeyə dəyər.
Çox qısa bir zaman ərzində insanı özünə inanılmaz dərəcədə bağlayan birisən sən. Sənin necə olduğunu söyləyə bilsəydim, səni belə çox istəməzdim.
Sən sirr daşıyıcısı, naməlum, məchul birisisən...».
... Hər gün daha da bağlanırdım Mələyimə. Hər gün istəyim birə-beş artırdı. Amma Həmidəni qəlbimdən çıxara bilməməyim, ikili oyunum bir gün məni çox çılpaq bir həqiqətlə və çox müdhiş bir faciəylə üz-üzə qoydu...

Yeni il ərəfəsində Nərminlə Əminənin sözləri düz gəlmədi, onsuz da düşmən olan qızlar söz savaşından əlbəyaxa savaşa keçdilər. Və bu dava zamanı bölüşmə predmeti kimi mənim də adım hallandı və belə məlum oldu ki, gizlincə hər iki qızla da dostluq edirəmmiş...
Onların düşmənçiliyi daha pik həddə çatdı, üstəlik hər ikisində mənə qarşı nifrət yarandı, hər ikisi məndən üz döndərdi...
Əslində, mən sirrimin açılacağını Əminədən gözləyirdim. «Qurd qapısı» söhbəti, məni, sevdiyini aldatması, sonra başqasına nişanlanması... Amma Nərmindən gözləmirdim. Çünki Nərminə özüm kimi inanırdım...
Gecə ona zəng edib bircə kəlmə söz dedim, «sənə inanırdım». Həmin gecə ömrümün ən dəhşətli gecəsi oldu. Özümü heç cür bağışlaya bilmirdim, iki qızı aldatdığım, hissləri ilə oynadığım, sonda isə hər ikisi tərəfindən alçaldılaraq atıldığım mənə rahatlıq vermirdi. Hətta o dərəcədə sarsılmışdım ki, damarlarımı kəsib özümü öldürmək qərarına da gəldim. Nərminlə Əminəyə vida sözlərimi çatdırmağı qrup yolaşımız Fatimədən xahiş etdim. Xoşbəxtlikdən, Fatimə məni fikrimdən daşındırdı, aciz və zəif olub gülüş hədəfinə çevrilə biləcəyim ehtimalı ilə qüruruma və kişiliyimə toxundu. Hər şeyin yaxşı olacağına məni inandıra bildi, mən də intihar fikrindən vaz keçdim...
Ertəsi gün Fatimə hər iki qıza zəng edib mənim düşdüyüm vəziyyəti izah etdi, həyatla vidalaşmaq həddinəcən gəldiyimi bildirdi. Xahiş etdi ki, qızlar mənimlə barışsınlar. İlk öncə Nərmin, dalınca da Əminə zəng etdilər. Onlar hər şeyin arxada qaldığını, baş verənləri unutmağımın zəruriliyini söylədilər...
Ömrümdə ilk dəfə narkotikin dadına baxdım. Həyatım qara zolağa daxil olmuşdu sanki, heç cür ordan çıxa bilmirdim…
Səhərisi gün mən kollecə gəldim, kimsənin üzünə baxmaqdan utanırdım... Kişilik instinktim məhz bu gün son qərar verməyimi zəruri edirdi. Dəmiri isti-isti döyməli idim, başqa yolum yox idi. Mən Əminə ilə ayrılıb, Nərminlə qalmaq qərarını verdim. Beləcə, Nərmin ömrümə qayıtdı. Mənim Mələyim onsuz keçərkən ağ-qara bürünmüş həyatıma yenidən al-əlvan rənglər gətirdi...

**4-cü hissə. Anar**

Biz demək olar ki, bütün günü SMS-ləşirdik. Telefonun mesaj siqnalını hər an gözləməkdə idim. Telefon əlimdə bitmişdim... Onun SMS-ləri tək telefonuma yox, həm də beynimə həkk olunurdu.

18.12.2010
Nə qədər ciddi olduğumu bilmirsən. Ayın 30-da məclisə də gedəcəm, bufetə də haçan istəsəm düşəcəm. Get qanunlarını başqa qız dostlarına diqtə elə.

19.12.2010
Mənimlə danışırsan, bu, bəs deyil, hələ başqaları ilə də danışırsan? Eybi yox, istəyirsən lap 10-u ilə danış, mənə dəxli yoxdur.

20.12.2010

Anar, qadası, yaxşı da. Mən səni çox istəyirəm, bunu heç vaxt danmaram. Hər zaman yanındayam. Narahat olma. Damar-zad kəsmək nədir axı? Belə eləmə də, qorxuram vallah.
Sabah gələcəksən, elə bir vəziyyət görəcəksən, elə bil heç nə olmayıb. Narahat olma. Heç kim də nifrət eləmir sənə.

21.12.2010
Əsəbiləşirəm. Niyə axı? Mənim ən böyük günahım insanlara tez güvənməyimdir? İnsanları özüm bilməyimdir? Yoxsa yaxşı tanımadığım bir insanla dost olmağımdır? Bəlkə pis qız olmağımdır? Nə? Nə? Nədir axı?

22.12.2010
Anar, mən həyatımı yaşamaq istəyirəm, yanlış, ya doğru. Səhv, ya düz. Buna qoy, mən özüm qərar verim.

23.12.2010
«Sənə inanıram» romanını yarıyacan oxumuşam. Orda hədər yerə yazılmır ki: «Yalan nədən yaranır? Təbii ki, qorxudan. Qorxu - bizim qərar qəbul etməyimizin əsas ləngidicisidir.
O, qəbul etdiyimiz qərarı tükürpədən səslə dayandıran əyləcdir»...

24.12.2010
Hər insanın səhvləri olur, qadası. Yıxılan insana zərbə vurmazlar. Çünki birinci dəfə deyil belə şey görürəm. İnanmaq istəyirəm sənə. Axı bunadək inanmışam. Bu inam da birdən qırılmır.

25.12.2010
Əgər biri səni aldatmışdırsa, bu onun günahıdır. O adam, əgər səni bir neçə dəfə aldatmışdırsa, bu artıq sənin günahındır.

26.12.2010
Bu dünyada iki qüsursuz insan vardır. Biri doğulmamış, biri isə ölmüş. Hər yazdığım mesajda sən varsan. Özünü orda axtar, səhvlərinlə, günahlarınla.

27.12.210
Hər bildiyini söyləmə, amma hər söylədiyini bil... Çox gözəl sözlərdir... Kontur qurtardı, daha yaza bilməyəcəm.

28.12.2010
Unudum? Bu, sən deməklə deyil ki. Bəlkə sən hər şeyi silib atmaqda ustasan, çox yaşamısan belə şeyləri. Amma məndə birinci dəfədir. Mən istəsəm də silə bilmirəm. Unutmaq üçün zaman lazımdır.
Xahiş edirəm, nömrəmi sil. Mən də siləcəm. Amma beynimdən necə siləcəm, bilmirəm.

29.12.2010
Bəlkə də həyatda heç kəs, ailəmdən kənar heç bir insan məni bu qədər ağlada, incidə bilməzdi. Amma sən bunu etdin.

29.12.2010
Sən Əminəni sevirsən...

31.12.2010
Bu gecə ağ saqqalı, qırmızı papaqlı bir kişi səni qaçırtmaq istəsə, qorxma. Çünki Şaxta Babadan yeni il hədiyyəsi olaraq səni istəmişəm...
Daha yazmayacam. Bayramını təbrik edirəm. İnşallah, bu il sənə düşərli olar, evlənərsən. Sənin xoşbəxt olmağını istəyirəm, buna layiqsən, dostum.

02.01.2011
Aa. Bu saatda, bu soyuqda çöldəsən? Get evə, qadası. Get, mənə də mesaj yaz ki, evdəyəm. Tez ol, bax yatmıram, gözləyirəm.

04.01.2011
Önümdə getmə, səni izləməyə bilərəm. Arxamdan da gəlmə, yol göstərməyə bilərəm. Yanımda yeri və yalnız dostum qal. Albert Kamyudan.

15.01.2011
Səninlə səhərdən-axşama kimi danışmaq istəyirəm. Amma heyif, alınmır. Bircə tətil tez bitsəydi. Bircə məktəb tez açılsaydı...

17.01.2011
«Bilirəm, biz sadəcə dostuq. Subay qalası deyilsən ki. Birini sev, buna sözüm yoxdur. Amma məndən üstün, məndən çox heç kimi istəmə...»
Bəzən gecə sübhədək yazışırdıq. Minlərlə SMS yazmışıq biri-birimizə. Bu SMS-lər ömürümüzün birgə keçən gunlərinin yeganə şahidləridir...

**5-ci hissə. Anar**
«... Bəs niyə min illərdir ki, heyvan, quş, balıq və həşəratların güclüləri zəiflərini məhv etməkdə ikən, zəiflər qırılıb yox olmurlar? Meşədə yalnız pələng, səmada qartal, dənizdə köpək balığı, səhrada ilan yaşamır? Çünki min illərdir ki, daim təhlükədə qalan zəiflər müxtəlif yollar axtarıb-aramaqla ya cəldliklərinin, ya hiyləgərliklərinin, ya sürətli nəsilartırma qabiliyyətlərinin, hətta rəngdəyişmələrinin hesabına yaşamaqda davam edirlər.
Heyvan, quş, balıq və həşəratların vəhşi qanunları insan cəmiyyətində də, ancaq nisbətən sivil formada mövcud olmaqdadır...
Üstəgəl, insan cəmiyyətində zəif heyvan, quş, balıq və həşəratların malik olmadığı bir silah da var. Zəiflər ümidlərlə də silahlanırlar. Sabahkı günə, xoş günə olan ümidlərlə...
Ümid ən təsirli tiryəkmiş, demə...».

... Həmin vaxtlar «Sonuncu ölən ümidlərdir» kitabı o qədər populyar idi ki, kollecimizdə hamı onu oxumuşdu. Hamının sözünün əvvəli də İlqarla Nailə idi, axırı da. Nərminlə mən də hər gün öz aramızda kitabı müzakirə edir, qəhrəmanları gah ittiham edir, gah onlara bəraət verirdik. Ümidlər barədə olan sözləri isə əzbərləmişdik. Axı biz də sabahkı günə ümid bəsləyir, ümidlə yaşayırdıq...
Nərminlə indi lap yaxın idik. Mənim fədakarlıq göstərərək Əminədən ayrılmağım, məhz onu seçməyim Nərmində mənə olan hissləri birəbeş artırmışdı...
Dərs günlərinin birində kollecin həyətinə çıxanda bir oğlanın Nərminə telefon nömrəsi verdiyini gördüm. Dərhal oğlanın üstünə cumdum, ona hədə-qorxu gəldim. «Bir də bu qıza yaxınlaşsan, səni o dünyaya vasil edərəm» söylədim. Yazıq oğlan ilim-ilim itdi.
Əsəbi halda Nərminə yaxınlaşıb soruşdum ki, o oğlan niyə sənə telefon nömrəsi verirdi? Nərmin dedi ki, məndən xoşu gəlir. Dedim, bəs sənin necə, sənin də ondan xoşun gəlirmi? Dedi, niyə də gəlməsin.
Ardınca da köhnə söhbəti başıma vurdu, riyakar olduğumu, eyni vaxtda iki qızla bir-birindən xəbərsiz yaxın olmağımı vicdansızlıq adlandırdı.
Bu sözlər mənə çox pis təsir etdi. Nərmindən heç vaxt bu sayaq sözlər gözləmirdim. Keçmişi tez-tez xatırlaması mənə öldürücü zərbə idi. Onun kimisə sevməsini, kimdənsə xoşu gəlməsini isə heç qəbul edə bilmirdim...
Elə şoka düşmüşdüm ki, heç özümdə-sözümdə deyildim. Qəzəbimi boğa bilmədiyimdən yumruğumu düyünləyib kollecin pəncərə şüşələrindən birini qırıq-qırıq etdim. Sağ əlimin üstü kəsik-kəsik olmuşdu, qan dayanmırdı.
Nərmin bunu görüb çox pis hala düşdü. Hönkürtü ilə o qədər ağladı ki. Gözləri qızardı, şişdi. Məndən niyə belə etdiyimi soruşdu, mən dedim ki, məgər bəlli deyil niyə belə eləməyim?
And-aman elədi ki, o oğlandan xoşu gəlmir, sadəcə, məni qısqandırmaq üçün belə edirmiş...
Son sözləri bu oldu:
- Mənim heç kəsdən indiyədək xoşum gəlməyib, bundan sonra da gəlməyəcək...
İki gündən sonra dərsləri yekunlaşdırıb tətilə çıxdıq, Nərminlə ayrıldıq. O vaxtan sonra bir daha görüşmədik... İndi özümdə güc tapmalı, iyunadək Nərminsizliyə dözməli idim. Bir də iyunda dərslər başlayacaqdı axı... Arada isə onu görə bilməzdim. O, evdən heç yerə çıxmırdı axı...
Mən təbiətcə özümü güclü sayırdım. Amma, demə, zəifliklərim var imiş. Çevrəmdəki uşaqlar narkotik aludəçiləri idi, şəxsi həyatımda uğursuzluqlar sıralanmaqda ikən get-gedə çevrəmə daha çox üz tuturdum. Kollecdən tətilə çıxmağımız, Nərmindən ayrılmağım isə məni daha çox sıxır, depressiyaya salırdı... Özü də Nərmindən küsülü ikən ayrılmağım, mənə qarşı etdiyi son haqsızlıq heç cür mənə rahatlıq vermirdi... Heç bilmədim, necə oldu, narkotiklərə qurşandım. Hətta arada üzərimdə narkotik maddə gəzdirdiyim üçün həbs də olundum... Ömrümdən keçən bu qara xətt məni məhrumiyyətlərə düçar etdi. Evdəkilər hər şeylərini satıb məni həbsdən qurtardılar...
Sonra məcburi müalicə, narkotikdən asılılığının tam yox edilməsi prosesi oldu...
Sonra bir qədər özümə gəldim, maddi sıxıntı amansız həmlə etmişdi ailəmizə, çox çətin idi dolanmaq...

Tikintiyə fəhlə düzəldim. Daş işi heç mənlik deyildi, ağır zəhmətə alışmamışdım... Amma məcbur idim...
Beləcə, həyatımın ən çətin dönəmində özümdə güc tapıb məhv olmaqdan xilas oldum, min bir zəhmətə qatlaşıb özüm uçurub dağıtdığım ailə maddiyatımızı bərpa etməyə başladım...
Bu arada Nərminlə ara-sıra SMS-ləşirdik. O, həm həyatımı bilir, həm də bilmirdi. Mənə dəstək olmaq istəyir, ürək-dirək verir, çox istədiyini söyləyirdi...
... Sən hər şeyi ürəyinə salırsan. Heç nəyi ürəyinə salma, nə olar.
... Nəsə olub, məndən gizlədirsən. Niyə yazmırsan?
... Axı sənə nə olub, vallah narahatam. Dəli eləmə məni.
... Sənin həbs olunmağını eşitdim. İnan, ayağımın altından yer qaçdı...
... Sənin belə olmağın, bu başını gələnlər bəlkə də ən çox məni sarsıtdı. Axı niyə belə oldu?
... Sən belə etməməliydin. İnsan necə yaşayacağını özü seçir. Sən nə fikirləşərək belə etdin, bilmədim. Bu, ən axırıncı variant idi. Bu, ölümə bərabər bir səhv idi.
... Harda işləyirsən? Yaxşıdır ki, iş tapmısan. Daha heç nə barədə düşünmə, hər şey arxada qalıb. Yeni bir səhifə aç.
Müalicə al, təmiz qurtar. Gələcəyini düşün. Sənin həyatın hələ qabaqdadır, bunu unutma.
... Düşün ki, özündən başqa ailən də var, onlara inamı yenidən qazandır. Sən mənim ağıllı dostumsan, hər şeyə yenidən sahib olacaqsan!...
Amma mən hər şeyin belə davam etməsini istəmirdim. İçimdə bir utanc hissləri var idi. Daha onu – o gözəllik simvolunu, o ülvi və pak qızcığazı özümə – narkomaniyaya meyl etmiş, həbsxana görmüş birisinə yaraşdıra bilmirdim. Odur ki, günlərin birində telefonumu söndürdüm və Nərminlə əlaqələrim büsbütün kəsildi...
«Əvvəl işıq vardı, sonra zülmət gəldi. Əvvəl zülmət vardı, sonra işıq gəldi. Biri var zülmət içində işıq axtarasan, biri də var işığın içində zülmət. Birincidə sən nikbin, sabahkı günə inanan bir insan ampluasında görünürsən. İkincidə isə mənən, ruhən ölmüş birisən...» («Sənə inanıram» kitabından).

## 5-ci bölüm. Anar

Günlər keçir ağır-ağır
Səndən ayrı.
Yollarıma çiskin-çiskin
kədər yağır,
səndən ayrı...

Nərminsiz qalmaq çox çətin idi. Yeganə təsəllim onun yazdığı və silmədən qoruyub saxladığım SMS-ləri dönə-dönə oxumaq, birgə dinlədiyimiz, sevdiyimz türk musiqilərini dinləmək, bir vaxtlar baş-başa verib oxuyaraq müzakirə etdiyimiz sevgi romanlarını təkrar-təkrar vərəqləmək idi.
Ancaq heç cür toxtaya bilmir, hara gedirdimsə, nə edirdimsə, beynimdən onu qopara bilmirdim. Gözlərim hey onu axtarırdı. Hər an mesajını gözləyirdim. Halbuki, onunla ünsiyyətdə olduğum telefonu axı söndürmüşdüm. Ondan daha mesaj gələ bilməzdi...

**6-cı bölüm. Ramin**
Həyatım qəfildən büsbütün dəyişdi.
20 yaşında ikən avtomobil qəzasına düşüb yerimək qabiliyyətini itirdim. İlk dövrdə nitqim də tutulmuşdu. Ancaq sonra nitqim düzəldi, bununla belə, ayaqlarım açılanadək heç kəslə kəlmə kəsməyəcəyimə qərar verdim. Ailəmizdən başqa hamı ilə ünsiyyəti qırdım. Dostları, qonşuları, qohumları, sevdiyim qızı... hamını öz şikəstliyimə görə unutmağa məhkum idim. İstəmirdim halıma acısınlar, mənə yazıqları gəlsin...
Qəribə bir məşğuliyyət tapdım dörd divar tənhalığının ölü sükutunda. Telefon nömrələri yığıb SMS göndərirdim. Gözləyirdim ki, bu SMS-lərin birinə haçansa bir gözəl qız cavab verər. Cavablar oxşar və monoton olurdu adətən:
«Səhv düşmüsünüz...»
«Hansı nömrə lazımdır ki, sizə?...»
«Mən sizi tanımıram...»
«Bir də bu nömrəyə SMS yollamayın...»
Amma bir gün istədiyim oldu. Nərmin adlı bir qız öncə SMS-imi top-tüfənglə qarşılasa da, ardıcıl yazmağım, əl çəkməməyim onda mənə qarşı maraq yaratdı. O, əsəbi halda: «Axı nömrəmi hardan əldə etmisən?» sualını verəndə «Məni səni tanımıram, heç görməmişəm, sırf təsadüfdir» cavabını yazdım. Sonra başıma gələnləri ona yazdım. Yazdım ki, 22 yaşım var, 20 yaşında ikən musiqi kollecinin II kursunda oxuduğum vaxtlarda öz maşınımla qəzaya uğramışam, 27 gün komada qalmışam. 2 ildir hələ də ayaqlarım tutmur. Düzdür, təzə-təzə buna inanmadı, amma mən onu inandırmağa çalışdım. Niyə belə olmağının səbəbini soruşdu. Dedim, mənim sevdiyim qız var idi. O qız AZİ-də oxuyurdu. İki il idi ki, bir-birimizi sevirdik. Bir gün dostum mənə sevdiyim qızın «Gəncliy»in parkında bir oğlanla görüşdüyünü dedi. Mən maşına oturub ora gedərkən surət həddini aşdığım üçün qəzaya uğradım. Və başıma bu iş gəldi. Bir az inandı. Amma çox təkid etdi ki, telefonda danışmalıyıq. Dedim, bu mümkün deyil, mən 2 ildir susuram. Komadan ayıldığımda dilim söz tutmurdu, danışa bilmirdim. Amma sonra düzəldi, özüm danışmadım. Soruşdu niyə? Dedim, bu, mənim prinsipimdir. Özümə söz vermişəm ki, sağalmayınca heç kəslə danışmayacağam. Heç evdəkilərlə də danışmıram.
Mən ona ilk SMS-i fevral ayının 17-si yazmışdım. İki günlük ardıcıl yazışmadan sonra mən ondan istədiyim sözü aldım. Əlbəttə ki, bu sözü böyük səbirsizliklə gözləyirdim. O yazmışdı: «Çox gözəl nömrən var».

Axı mənim çox super Bakcell nömrəm var idi. Bu vəziyyətdə qürrələnəsi yeganə şey bu nömrə idi.
Fürsətdən istifadə edib məni daha çox istəməyi, mənə inanmağı üçün öz nömrəmə uyğun, yalnız son rəqəmi fərqli olan bir nömrə aldım və içinə onun 18 yaşına uyğun olaraq 18 min kontur yüklədim. Nömrə və kontur zərfini Gənclikdə yerləşən Mac'donalds-a qoydum. Nərminə də yazdım ki, sənə filan yerdə kiçik bir hədiyyə qoymuşam, get götür.
Təəccübləndi, tərəddüd etdi. Götürməyəcəyini söylədi. İki-üç saat müzakirə və mübahisə etdik. Axırda bir təhər hədiyyəni götürəcəyinə razı sala bildim onu.
Bir müddət sonra nömrəni telefona taxıb necə gözəl nömrə olduğunu, üstəlik 18 min konturla yükləndiyini bildi. Yazdı ki, çox təəccübləndim və sevindim. İndiyədək heç kəsdən belə hədiyyə görməmişdim. Yazdı, sənə çox minnətdaram, amma hədiyyəni qəbul edə bilməyəcəm, belə bahalı hədiyyəni qəbul edə bilmərəm...
Paralel olaraq onun həyatını büsbütün öyrənmişdim. Anar barədə də hər şeyi bilirdim. Münasibətləri qədərincə mənə aydın idi.
Mən bilirdim ki, onun Anara olan istəyində Anarın onu dəlicəsinə qısqanması başlıca yer tuturdu. Bu xüsusiyyəti bəyəndiyindən, mən də qısqanclıq oyununa başladım. Yazdım, səni daşa-divara qısqanıram, bu nömrə səndə olsa rahatlaşaram, bilərəm başqası ilə SMS-ləşmirsən... Nəhayət onu razı sala bildim...
Beləcə, ünsiyyətmiz möhkəmləndi. Çalışırdım Anarda olan xüsusiyyətləri bir-bir ortaya qoyum. «Sevdiyin varmı?» sualıma «yox» cavabı vermişdi...
Mən həm istəyirdim onun Anar haqqında nə düşündüyünü öyrənim, həm də Anarsız keçirdiyi həyatına bələd olmaq istəyirdim. Dəhşətli bir «qısqanc dost» obrazı yaratmışdım. Hətta bəzən «kopya Anarsan» deyirdi mənə, soruşanla ki, Anar kimdir, cavab vermirdi. Onu rəfiqələriylə harasa getməyi belə qoymurdum. Özümü ona o qədər istətmişdim ki, kimsə narahat edəndə mənə bildirirdi. Hətta ona edilən gizli zəngləri belə tuturdum, bir də belə zəng gəlmirdi.
Gəzə bilməyən bir adamın onun üçün bu qədər şey eləməsi çox təsiredici idi, odur ki, Nərmin get-gedə daha çox bağlanırdı mənə.
Bir dəfə dostluq mövzusunda söhbət açdım, soruşdum oğlan dostun olubmu, dedi olub, adı da Anar. Cəld də əlavə etdi ki, xasiyyəti eynən səninki kimidir. Dedim nə Anar, harda qalır? Dedi Xırdalanda. Oyunun qaydalarına görə mən Anarı tanımalı idim, belə daha rahat olacaqdı gələcək münasibətləri qurmağa. Dedim xırdalanlı Anarı mən də tanıyıram. Nərmin bu təsadüfə çaşıb qaldı. Öncə inanmadı. Amma mən söylədim ki, həyatda təsadüflər çox olur. Məndən Anarı necə tanıdığımı soruşdu. Dedim uğrunda qəzaya uğradığım qız var idi, yadında, sənə danışmışdım? O qız da Xıdalanda qalır. Qızın sinif rəhbəri Anarın anası olub.
Nərmin heyrət içində bildirdi ki, xasiyyətinizin eyniliyi, görünür, tanışlığınızı zəruri edibmiş. İkiniz də qısqanc, ikiniz də davakar, ikiniz də mütaliəni - kitab oxumağı sevən... Dərhal məndən xahiş etdi ki, istədiyim qızdan Anar barədə soruşum. Dedi qurban sənə, öyrən gör Anar hardadır, niyə telefonunu söndürüb, nə olub ona?
Dedim öyrənərəm. Ancaq Anarın başına gələnləri artıq bilirdim. O narkotikaya qurşanmış, hətta həbs də olunmuşdu. Çıxandan sonra müalicə alırdı. Ertəsi gün ona

yazdım ki, Anarın başına nəsə faciə gəlib. Heç evlərinə də getmir. Nərmin göz yaşları içində məndən xahiş etdi ki, Anarı tapım.
Ona Anarı tapacağıma söz verdim.

**7-ci bölüm. Anar**

Gözlərinə de ki,
girməsinlər yuxuma,
nə kədərli,
nə sevincli,
nə şirin vədəli.
Dodaqlarına de ki,
Çəkilsinlər xəyalımdan.
Pıçıltılı,
gileyli,
hədəli.
Bu gözəl şeir parçasını «Sonuncu ölən ümidlərdir» kitabından götürmüşdüm.
Əzbərləmişdim bu parçanı.
Eləcə də bunu:
Qəlbim yaman kövrəlib,
yaman doluxsunmuşam.
Yadıma yenə də sən,
Sən düşmüsən bu axşam.
Gəlib qulaq asasan,
Neçə dərdim, acım var.
Eh, indi bilsən sənə,
Necə ehtiyacım var.
Gözəl şairlərimizin kitabdan götürərək əzbərlədiyim belə gözəl, qəlbi riqqətə gətirən parçaları çox idi. Eləcə də Varisin kitablarından bu cür ibrətamiz cümlələr köçürmüşdüm qara üzlü cib dəftərçəmə: "Əvvəl işıq vardı, sonra zülmət gəldi. Əvvəl zülmət vardı, sonra işıq gəldi. Biri var zülmət içində işıq axtarasan, biri də var işığın içində zülmət. Birincidə sən nikbin, sabahkı günə inanan bir insan ampluasında görünürsən, ikincidə isə mənən, ruhən ölmüş birisən". Və yaxud bu fikrini: "Yalan nədən yaranır? Təbii ki, qorxudan. Qorxu bizim qərar qəbul etməyimizin əsas ləngidicisidir. O, qəbul etdiyimiz qərarı tükürpədici səslə dayandıran əyləcdir". Bunları Nərmin də xoşlayırdı. İndi bu misraları, bu kəlamları beynində təkrarlayıb, Nərmini xəyalımda canlandırır, onunla birgə keçən günlərin xiffətini çəkirdim. Onun üçün burnumun ücü göynəyirdi.
Və Raminlə tanışlığından xəbər tutandan sonra onu qısqanmağa başlamışdım. Başqasıyla ünsiyyət qurmağı, get-gedə ona daha çox bağlanmağı ilə, demək mənə – Anara xəyanət edirdi... Get-gedə peşiman olurdum törətdiklərim üçün. Məni gizlənməyə məcbur edən, mənə utanc gətirən şeylər dünyada ən çox istədiyim adamı - Nərmini də əlimdən almışdı...
Bir müddət mənim nömrəm bağlı qaldıqdan sonra telefonu yandırdım. Sən demə, Nərmin hər gün mənə zəng edirmiş. Mənimçün çox narahat idi. Biz danışdıq.

Məndən eşitdiklərinin düz olub-olmadığını soruşdu. Mən dedim düzdür, sən bunları hardan bilirsən? Nərmin mənə Ramin adlı bir oğlanla telefonda dost olduğunu dedi. Dedi sənin barəndə bu məlumatları da Ramin deyib. Mən təbii ki, bunu normal qarşılamadım. Soruşdum, niyə dost olmusan? Axı sən oğlanlara inanmırdın? Dedi yaxşı oğlandır. Həm də sənin kimidir. Dedi heç vaxt telefonda danışmamışıq, ancaq SMS-ləşmişik. O gəzə bilmir, xəstədir. Ancaq sağalana kimi dostluq edəcəm. Sağalsın, ayrılacam. Və mən Raminlə görüşəcəyimi söylədim. Nərminə dedim Raminə inanmıram, bəlkə səni aldadır, bəlkə gəzə bilir? Dedi get yoxla.

Mən guya, gedib Raminlə görüşdüm və Nərminə doğrudan da onun gəzə bilmədiyini söylədim. Ancaq, əslində, getməmişdim. Zəng edib soruşmuşdum….

Beləcə, münasibətlərimizin yeni mərhələsi başladı. Bu mərhələdə artıq hər ikimiz - Anar da, Ramin də Nərminlə danşırdıq. Nərmin Raminlə aralarında olan bütün söhbətləri açıb mənə danışırdı. Hərdən Raminin ona canım, ürəyim deməsindən əsəbləşdiyini də bildirirdi. Ancaq xahiş edirdi ki, Raminə heç nə deməyim.

Get-gedə gözümün qabağında Nərminin dəyişməsinə dözə bilmirdim. Onu Raminə dəlicəsinə qısqanırdım. Ramini öldürmək həddinə çatmışdım hətta.

Amma nə etmək olar... Bu oyunu özüm başlamışdım. Özüm də sona çatdırmalıydım. Oyun hara kimi davam edəcəkdi, axırı nə olacaqdı, təsəvvürümə belə gətirə bilmirdim...

Günlər beləcə keçir, Nərmin-Anar-Ramin üçbucağı daha da möhkəmlənirdi...

Bu arada çox ciddi problemlər də yaranmışdı...

Mən əvvəllər konturlara hədsiz pul xərcləyirdim. Çünki bütün sutkanı Nərminlə mesajlaşırdıq. Qıza da konturu mən yükləyirdim.

Başıma gələn problemlərdən, ailəmiz varidatını itirəndən sonra çox ciddi maddi sıxıntı çəkirdim. Tikintidə işləməklə – quru maaşla ailənin və özümün yükünü çəkmək axı çox ağır idi.

İndi Nərminlə əlaqəni yenidən bərpa etdikdən sonra «konturlara hardan pul tapmaq?» sualı qarşımda keçilməz bir çəpər kimi dayanmışdı. Təkcə fevral ayının sonunda – 13 günə bir-birimizə yazdığımız mesajların sayı 4300 olmuşdu...

Təcili nəsə etmək lazım idi...

... Bir müddət üçbucaqda qaldıqdan sonra gecənin bir aləmində, Nərmin yatan vaxt ona belə bir mesaj yazdım: «Sən Ramini çox istəyirsən. Sən mənə olan istəyini onunla bölürsən. Amma mən səni kiminləsə paylaşa bilmirəm. İstəmirəm kimisə belə istəyəsən. Mən sənin ömründən çıxıram. Əlvida!».

***

«Küsdüm. Bu nə deməkdir? Mənim üçün nəyin yaxşı, nəyin pis olduğunu özüm qərar verə bilərəm. Sən niyə mənim əvəzimə qərar verirsən? Xətrimə dəydin. Ağlayım indi?».

Bu mesajı o vaxt mənə Nərmin yazmışdı, hələ Ramin yox idi onda. O vaxt onun əvəzinə qərar verib onu hövsələdən tez-tez çıxardırdım. İndi də onun əvəzinə qərar verdim. «Anar, yoxsa Ramin» seçimində Nərmini Raminlə baş-başa qoyub Anr kimi sakitcə qeyb oldum.

«... Məşhur bir əhvalat var, magistral yolun kənarında bir yoxsul uşaq yaşayır. Bahalı maşınlarda gəlib-gedən yaşlı, varlı qocalara həsədlə baxır... Onların yerində olmağı arzulayır. İllər keçəndən sonra həmin uşaq var-dövlətə çatır, qocalır. Bir dəfə həmin magistral yoldan bahalı maşınla keçəndə isə yolun kənarında durub gəlib-gedənlərə baxan yoxsul bir uşaq görür... Həsədlə o uşağa baxır, onun yerində olmağı arzulayır...». Bu hissəni oxcuyub kitabı yerə qoydum...
Doğrudan da, insan çox mürəkkəb bir varlıq imiş. Gündəlik həyat tərzi, düşüncələri, arzu və istəyi daim dəyişməkdə, daim təzad yaratmaqdadır...
Eləcə də, mən özüm... Bir vaxtlar Nərminli həyatımda hamı mənə həsəd aparırdı... Sonra onu öz əllərimlə Raminə verdim, indi mən Raminə həsəd aparırdım...

**4-cü hissə**
**8-ci bölüm. Ramin**

Nərminlə münasibətlərimiz dərinləşdikcə özümü xoşbəxtlərin xoşbəxti sanırdım. O, ildırım sürətiylə mənimlə yaxınlaşdıqca, hiss edirdim ki, eyni sürətlə də Anardan uzaqlaşır...
Nərminin öncəki SMS-ləri belə idi:
... Dostum idi, bəlkə də dost yox, qardaş idi...
... Elə yaxşı idi ki. Mən onu heç vaxt unutmaram. Mənə çox yaxşılıqlar etmişdi. Yaxşılıqlarını unutmaram sadəcə.
... Məni hər şeydən, hər kəsdən qoruyurdu. Mənə bir artıq söz deyən olsaydı, davaya gedərdi. Başım ağrıyanda dərman alardı...
... O, çox yaxşı oğlan idi. Onu o qədər çox istəyirdim ki...
Amma sonrakı SMS-lər get-gedə məzmunca dəyişilirdilər:
... Yox, dedim axı, o, mənim dostum deyil, sadəcə, qrup yoldaşıyıq biz.
... Mənim elə dostum olmayıb, yoxdur. Başa düşürsən? Mən daha onunla danışmıram.
... Nə xəyanət? Mən Anara xəyanət edirəm? Dosta xəyanət olar? Sadəcə, belə olmalıydı, oldu da. Onun adını çəkmə! Birdəfəlik!
... Eh. Niyə yaşayım, niyə? Hər gün eyni şeylər, eyni mənasız həyat. Çox pis xüsusiyyətlərim var. Tez inanan, tez ağlayanam...
... O kimdir axı, səni məndən kənarlaşdırmaq istəyir? Onun dediklərini etmək istəyirsən ki? Mən onu biryolluq siləcəm...
Anarla münasibətləri kəsildiyindən, Nərminin qanının qaraldığını da sezirdim. Arada məndən təkidlə Anardan bir xəbər bilməyimi tələb edirdi. Müalicəmlə bağlı İrana gedəsi oldum. Nərminlə martın 4-ü İrana – müalicəyə getdiyimi söyləyib ora yola düşdüm. Orada 9 gün qalıb Bakıya döndüm. Ayın 13-ü artıq evdə idim. Gələn kimi həddən artıq darıxdığımı ona yazdım. Bildirdim ki, gəlmişəm. O, sağalıb-sağalmadığımı soruşdu. Dedi nə olar, de ki, artıq gəzə bilirəm, sevindir məni. Dedim, hələ sağalmamışam, əməliyyat olunmalıyam, inşallah, aprelin 2-də yenidən İrana qayıtmalıyam. Nə illah elədi ki, gəl danışaq, səsini eşidim, dedim yox, bu mümkünsüzdür...
Yazışmalarımız yenə əvvəlki qaydada davam etməyə başladı.

Bir gün məndən kimdənsə xoşumun gəlib-gəlmədiyini soruşdu. Dedim ki, bir qızdan xoşum gəlir. Əgər evlənsəm, o qızla evlənəcəm. İlk dəfə Nərmin məni qısqandı. Dedi, yox, heç kəsi sevmə, birinci dəfə idi ki, mənə belə bir söz deyirdi. Danışmadığı, görmədiyi, birini qısqanmışdı. Sonra özü də dedi ki, bu nədi e, artıq gicliyim tutur. Danışmayaq bu barədə.
Bir müddətdən sonra Nərmin yenidən dirəniş göstərdi ki, mütləq telefonda danışmalıyıq. Dedi, bu dəfə də danışmasan, səndən ömür billah küsəcəyəm. Dedi, pis vəziyyətdəyəm, kefim yoxdur, danışaq, bir az özümə gəlim.
Nə qədər etiraz etdimsə də, mümkün olmadı. Çox çıxılmaz vəziyyətdə idim. Axı danışa bilməzdik, danışsaydıq... Yox, bir sirr vardı, danışsaydıq bu sirr açılacaqdı... Məcbur qalıb vaxtı uzatmağa çalışdım: «İndi evdə qonaqlar var, getsinlər, zəng edərəm», - söylədim. Dedim, bəlkə çılğınılığı keçər və zəngləşmək məsələsi yadından çıxar. Amma yox. Dəqiqədən bir yazırdı ki, nə oldu, qonaqlar getmədi? Yazırdı ki, bu gün də danışmasaq, doğrudan səninlə qurtaracam...
Məhz bu anda Anar təsadüfən ona zəng etdi... Uzun fasilədən sonra olan bu zəng Nərmini o qədər təəccübləndirdi ki. Və həm də o qədər sevindirdi ki... Nərminin bir müddət yazmadığını görəndə nömrəsini yığıb məşğul olduğunu görmüş, şübhələnib dərhal Anarı yığmış, onun da nömrəsinin məşğul olduğunu görmüşdüm. Mən əmin idim ki, bu an Nərminin titrək səsində həyəcan, sevinc tonu vardı, başa düşürdüm ki, o, Anarı necə də çox istəyirmiş...
Nərminlə Anar danışırdı, mənsə tək qalmışdım. Ona mesaj yazdım. Yazdım ki, qonaqlar getdi, zəng edim? Təbii ki, Anarla danışdığı üçün Nərmin bu mesaja cavab yaza bilməzdi. Ardınca növbəti SMS-lər yazıldı:
«Zəng edim, ya yox?»
«Nə oldu, niyə cavab vermirsən?»
«Demək, danışmaq istəmirsən?»
«Bax indi danışmasan, bir də heç vaxt danışmayacam səninlə».
Amma Nərmin cavab vermirdi. Doğrudan da, o, ilk dəfə, heç vaxt üzünü görmədiyi, səsini eşitmədiyi, bağlandığı bir oğlanla danışacaqdı, danışmayan bir oğlanı danışmağa vadar edəcəkdi. Amma Anara görə bu oğlandan – məndən vaz keçdi. Hər gün mənimlə danışmaq istəyən, bunu arzulayan Nərmin, bu gün Anara görə bunu etmək istəmədi….

**9-cu bölüm. Anar**
Həmin gün biz 11 saat telefonla danışdıq. Heç yorulmaq bilmirdik.
Mən iki yerdə işləyirdim. Gündüzlər sexdə işləyirdim, gecələr isə zavodda mühafizəçi dayanırdım. Bunları Nərminə danışırdım, o da halıma yanırdı. Mənim üçün nələr etmək istəyirdi. Deyirdi, kaş çoxlu pulum olardı, sənə hər şey edərdim. Əlbəttə ki, mən etiraz edirdim. Mənə kontur göndərdi. Bu, məni incitsə də, onu qırmamaq üçün qəbul etdim. Dedi, öz telefonumu satıb sənə pul verəcəm. Neçə dəfə dedi səni görmək istəyirəm. Sənə kömək etmək istəyirəm. Hətta geydiyim ayaqqabının ölçüsünü də soruşdu. Bildim ki, mənə ayaqqabı almaq istəyir. Amma mən bunların heç birini qəbul edə bilməzdim. O zaman mən vicdan əzabı çəkərdim ki, Nərmin mənə nəsə edir. Mən buna razı ola bilməzdim.

Mən qayıtmışdım, Ramini oyundan çıxartmışdım... Nərmin yenidən mənim idi. Martın 23-də Nərminin təkidiylə görüşməli idik. O, mənə pul verəcəkdi, pal-paltar alacaqdım... Amma mən buna imkan verə bilməzdim axı. Qürurum yol verməzdi qızdan sədəqə götürməyə.
Nərmin həyatımın son dönəmi – narkomaniya, həbsxana, işsizlik, yoxsulluq dönəmi barədə demək olar ki, hər şeyi bilirdi. Bu aralarda heç üzümü də görməmişdi. Düzdür, indi işə düzəlmişdim, amma sıxıntılar da davam edirdi axı. O, ən istəkli adamına kömək etməkdə israrlı idi. Mənsə, qəti qərar qəbul etmişdim. Görüş baş tutmamalıdır. Mən yalnız özümü tam doğruldandan sonra Nərminin üzünə çıxa bilərdim.…
Bu son günlərdəki danışıqlarımızdan sonra Nərminin məni nə qədər çox istədiyindən təsirlənmişdim. Hətta o, söyləmişdi ki, səni unutmaq üçün ərə getmək belə istəmirəm... Mənlə danışdığı müddətdə Raminə hər gün cəmi 10 SMS yazırdı, halbuki əvvəlki günlərdə bu SMS-lərin sayı 300-350 olurdu...
Ah, mənim sevimli Nərminim...
Mən o qızı o qədər çox sevirəm ki, dünyada hər şeydən çox. Amma sadəcə bir dost kimi. Başqa heç nə ola bilməzdi. Düzdü, bəlkə də ona qarşı nə vaxtsa ürəyimin dərinliklərində cüzi də olsa sevgi olub. Amma böyümədən, üzə çıxmadan onu boğub öldürmüşəm içimdə. Mən onu sadəcə bir dost kimi sevirdim (Hər halda, özümü buna inandırmağa çalışırdım). Və bu cür sevdiyimə maddi sıxıntı verməyi heç vaxt ürəyim qəbul etməzdi. Vicdanım yol verməzdi buna.
Çox inadcıl idi, dediyindən əl çəkən deyildi. Görüşsək və onun təklif etdiyi yardımı götürməsəm, bilirdim ki, bu, onu məndən qıracaq...
Amma nə etmək olardı?…

Özgə bağın meyvəsisən,
Yel gətirdi bizim bağa.
Gecə bizi qovuşdurur,
Səhər gəlir ayırmağa...
Nərmin məni kitab manyakı adlandırırdı tez-tez. Gecə-gündüz kitab oxumağım ona da sirayət etmişdi. Bəyəndiyim kitabları oxuyub ona da verirdim. Bu kitabların arasında şeir kitabları da az deyildi. Vahid Əzizin şeirləri də bəyəndiklərimin sırasındaydı. Bu səhər şairin ölməz misralarına bəslənmiş mahnını Zamiqin ifasında eşidib çox kövrəldim...
Həyatın öz qayda-qanunları var, bunların arasında ən pozulmazı isə istək, hiss və ehtirasın harmoniyasında özünü tapmış sevgi qayda-qanunlarıdır...
Çox təəssüf ki, bəzən bizim ən sevdiyimiz meyvə məhz özgə bağın meyvəsi olur...

**10-cu bölüm. Ramin**

Novruz bayramı arxada qaldı. Adi bayramlardan biri oldu bu bayram. Çünki, məni həyata bağlayan yeganə tel indi yox idi. Nərmin bu arada məndən tamamilə soyumuşdu. Amma ümidli idim ki, onu özümə qaytara biləcəm. Onun aləmində yataq xəstəsi olan, amma sağalmağa ümidini bir an da olsa itirməyən, güclü xarakterə, iradəyə malik bir gənc əsl qəhrəman idi o, bu qəhrəmanı qiymətləndirməyi bacarırdı. Məni dünyaya bağlayan yeganə tutalqa olduğunu

bildiyi üçün də mənimlə əlaqəni üzməyəcəyindən əmin idim. Həddən artıq duyğusal bir qız idi Nərmin.
Bir gün «Son günlər niyə məndən soyumusan» sualının cavabında «Anarla zəngləşirdim» söylədi. Çox kədərli idi, həm də qəzəbli. Anarın ünvanına çox «qəşəng» sözlər işlətdi. Dedi, Anar heyvandır, yaxşılıq başa düşən deyil. Dedi mən ona nələr etmək istəyirdim, amma o razı olmadı..
Nə isə. Yavaş-yavaş yenə Ramin-Nərmin münasibətləri normallaşdı, əvvəlki məcrasına düşdü.
Aprelin 1-i idi. Dedi, bu gün rəfiqəm gələcək, aşağı düşəcəm. Bir az gəzib gələcəm. Əlbəttə ki, buna razı ola bilməzdim. Dedim, yox, düşmə. Dedi, artıq çıxıram. Ürəyim darıxır. Amma mən ona elə sözlər dedim ki... Birtəhər onu yola gətirib evə qalxmasına nail oldum. Çox çətin oldu, amma alındı. Dedi, hara baxıram, hər yerdə bir qızla-oğlan gəzir. Mən nə qədər evdə oturacam, axı dəli oluram. Mən niyə çölə çıxmamalıyam ki?
Ancaq mən istədiyimə nail oldum... O, evdə qalası oldu.
Dəli qısqanclığım tutmuşdu axı. O rəfiqəsiylə gəzməyə çıxsaydı, oğlanlar ona baxardılar. Düzdür, qəribə qız idi, heç kəsə meyli olmazdı. Neçə dəfə küçədə hansısa oğlan söz atanda əsəbi halda söyləmişdi ki, ayıb deyil, nişanlı qıza söz atırsan?
Amma bununla belə, ona kənar gözlərin adicə baxmasını da qəbul edə bilmirdim...
Nərminin arzusu Londonda, Parisdə, İstanbulda olmaq idi. Şirin dilimi işə saldım ki, sağalım, gələcəkdə o böyük şəhərləri birgə gəzəcəyik.
Ertəsi gün mənə dedi ki, ata məni bir işə düzəldir. Gənclikdə bir firma var orda işləyəcəm. Ordan da xaricə göndərirlər. Mən şoka düşdüm. Bu, ola bilməz axı, Nərmin necə işləyə bilər? Dedim, yox, işləmə. Dedi, işləyəcəm. Bu nədir e, mənim hər işimə qarışırsan. Bir kəlmə, işləyəcəm. Mən ona dedim ki, sənə pul lazımdır? Pula görə işləyirsən? Ordan nə qədər maaş alacaqsan? Həmin maaşı mən sənə verəcəm, amma otur evdə. Heç yerdə işləmə. O dedi, dəli olmusan? Elə şey olar? Yox, bu mümkün deyil, elə şeyi ağlına da gətirmə. Amma sonda mən onu atasının düzəldəcəyi işdən də imtina etdirdim.
O, arada göz yaşları içində yazırdı:
- Sən məndən çox şey tələb edirsən. Dost yox, heç sevgili də, adama bu qədər məhrumiyyətlər eləməz.
Onu başqalarından qoruyurdum, get-gedə mənə daha çox bağlandığını da duyurdum. Bir axşam mənim necə bir görünüşüm olduğunu soruşdu.
Bu mesajı yazdı: "Sarışınsan yoxsa qara? Gözünün rəngi nə rəngdi? Necə geyimləri xoşlayırsan? Nələrdən xoşun gəlir? Xobbin nədir?"
Bu mesaj məni bir az qorxutdu. Dedim, birdən mənə aşiq olar. Görmədiyi, bilmədiyi adama. Amma bilirdim ki, Anara söz vermişdi, heç kəsi sevməyəcəyinə. Mən ona xüsusiyyətlərimi olduğu kimi yox, başqa cür yazdım. Sonra mən ondan necəliyini soruşdum: «Gözümün rəngi qəhvəyi, saçlarım uzundu, bir az sarışınam, boyum hündürdü, geyimin klassik-sport». Necə var hamısını düz dedi. Hündürboy, ağappaq, bir qızdı, çox gözəldi.
Sonra maşından söz düşdü. Ən sevdiyi şey maşın sürməkdi. Ən sevdiyi maşınlar - Ferrari, Bentli, Porşe, İnfiniti. Ən sevdiyi ətir – Versage. Dinlədiyi musiqilər türk

musiqiləri. Hər gün musiqiyə qulaq asır. Sevdiyi müğənnilər Kayahan, Kutsi... Bijuteriyani çox sevir. Şık geyinməyi çox sevir...
Hər şeyi olduğu kimi yazdı...
Axı özü barədə danışmağı xoşlamazdı. Yalnız Anara hər şeyi etiraf edərdi... Birdən doğrudan da məni sevdi, onda necə olacaq?
Yox... Axı buna yol verə bilməzdim... Bu mümkünsüz idi...

***

Bir gün axşamdan konturu qurtarmışdı, mənə yaza bilməmişdi. Ona 24 min kontur göndərdim ki, gen-bol işlətsin. Məndən küsdü. Dedi, niyə göndərirsən? Mən bunları necə qaytaracam? Dedim, pul verməmişəm, qardaşım Bakcell-də işləyir. Ordan pulsuz götürə bilir. Barışdıq. Dedi, bəs mən səninçün nə edə bilərəm? Dedim, ən sevdiyim şey şirniyyatdı, tortdu. Bir dənə tort bişirərsən, əvəzini ödəyərsən. O da qəbul etdi.
Yenə də söhbətləşmək mövzusu təkrarlanırdı. Deyirdim, Nina, bu vaxtadək dözmüsən, bir az da səbr elə, hər şey yaxşı olacaq. Demişəm, sağalmayınca heç kəslə danışmayacam, bu, mənim prinsipimdir. Düzdür, arada prinsipimi pozub səninlə danışmaq istədim. Onda da sənin başın Anara qarışdı...
Nərminə söz də verdim ki, sağalıb gələndən sonra ilk danışdığım adam sən olacaqsan.
Təzə tanış olanda nömrəsini təsadüfən yığdığımı söyləmişdim, o da bununla kiyayətlənmişdi. Amma bu son günlər təkidlə nömrəsini necə əldə etdiyimi də soruşurdu.
Növbəti dəfə bu barədə sual edəndə yalandan dedim ki, mən sənin nömrənə uyğun 5 nömrə yığdım və ən xoşuma gələn sənin səsin oldu. Və özümə söz verdim ki, mütləq bu qızla dost olmalıyam. Həm də o vaxtkı vəziyyətimi ona başa saldım. Dedim, bütün günü evdə oluram. Heç yerə getmirəm. Bir qızla dost olub onunla danışmaq istəyirdim. Evdə çox darıxırdım. Və qismətimə sən çıxdın. O da buna inandı.
Öncə sizə - qəzet əməkdaşlarına da belə demişdim. Amma indi etiraf edim ki, sizi aldatmışdım. Mən onu əvvəlcədən tanıyırdım...

11-ci bölmə. Ramin.
Anar haqda nələr düşündüyünü yoxlamaq üçün onu bir daha sınağa çəkdim. Ona dedim ki, Nina, sən ki mənə görə tanımadığın, bilmədiyin, hətta səsini belə eşitmədiyin birinə görə, hər şeydən vaz keçirsən, mənə görə heç yerə getmirsən, heç nə etmirsən, sənə çox borcluyam. Qoy sağalım gəlim, sənə Anardan da yaxşı dost olacam. Mən ona dedim ki, sənə elə bir dost olacam ki, bütün dünya bizim dostluğumuzdan danışacaq. Bütün hamı bizim dostluğumuza həsəd aparacaq. Buna inan, Nina. Sənə Anarı unutduracam. Hər şeyi mənə burax, amma qalır bir şey. Sənin Anarı unutmağın. Bizim dostluğumuza mane ola bilən tək bir adam varsa, o

da Anardı. Sən onu unutsan, hər şey öz yolunda olar. O dedi ki, mənə elə gəlir, mən heç vaxt Anarı unutmayacam. Heç kəs də onu mənə unutdura bilməz. Bir görün bu qız necə də sədaqətli imiş. Anar bunu bu qədər incidib, Anar buna bu qədər sıxıntı çəkdirib, amma yenə də deyir mən Anarı unutmayacam...
Artıq vədə yetişmişdi. Axı ona demişdim ki, aprelin əvvəlində İrana- əməliyyat olunmağa gedəsiyəm. Aprelin 3-də gecəyə kimi yazışdıq, vidalaşdıq.
Ertəsi gün bir gümüş mücrü, içində də gümüş üzük və sırğadan ibarət gözəl hədiyyə düzəltdim. Göndərdim Günəşliyə.
Günəşlidə Nərgizgilin aptekləri var idi. Hərdən özü də gedib otururdu aptekdə. Əvvəlki günlərdə aptekin harda yerləşdiyini öyrənmişdim. Nərgizə mesaj yazdım ki, get aptekə, qardaşım sənə bloknot gətirib, onu versin, getsin. Təəccübləndi. Dedi, mən indi düşə bilmərəm aşağı, aparıb versin kitab mağazası var, orda işləyən qıza, desin ki, bu Nərgizə çatacaq, qız məni tanıyır. Mən də razılaşdım. Hədiyyəni Nərgiz deyən dükana göndərdim. Saat 3-də dükandakı qız xəbər etdi ki, Nərgiz hədiyyəni götürdü. İçindəkini görəndə bilmədi sevinsin, yoxsa pis olsun. Dedi, mən bunu qəbul edə bilmərəm.
Nərgiz mənə yazdı: Adam göndər, gəlsin hədiyyəni götürsün. Dedim, dəli olmusan? O sənindi, mən necə onu geriyə götürüm? Dedim, onu sənə verməkdə məqsədim odur ki, mən çıxıb gedirəm, əgər sağalıb gəlsəm, gələcəm. Yox, əgər sağalmasam, onu məndən yadigar saxla. Mən sağalmasam, daha heç vaxt sənlə danışmayacam. Çünki mən belə şikəst olduqdan sonra danışmağımıza lüzum olmayacaq. Əgər şikəst qalıb səni görməyəcəmsə, əgər sənlə görüşməyəcəmsə, ünsiyyətdə olmayacamsa, bizim danışmağımızın heç bir mənası yoxdu. Belə olmaq məni çox üzür.
O da çox pis oldu. Dedi, hər gecə dua edəcəm ki, sağalasan, sən sağalacaqsan. Mən də dedim, qismət nədirsə odur. Gecəyə kimi danışdıq. Mən duyurdum ki, bir də heç vaxt Nərgizlə danışmayacam. Ayrıla bilmirdik bir-birimizdən. Bir türk mahnısı qoydum.
O da musiqini telefonda dinlədi. Hande Yenerin "Acı veriyor" mahnısı idi. Sonra özümü saxlaya bilmədim, gözlərim doldu. O da ağladı. Gecə saat 3-də sağollaşdıq....
Doğrudan da mənə çox ağır idi. Bax, bu anımda mən Nərgizi itirməyimdən üzülür, sıxılırdım. Onu Anara qaytarmalıydım, oyun artıq bitmişdi. Sanki cərrahi əməliyyatdan sağ çıxmayacağıma əmin idim...

***

Telefonun dəyişsə,
Təzə nömrəni
Gətir, basdır məzarıma,
Eşidirsənmi?
Vaqif Səmədoğlu

Bu ilki aprel nədənsə çox soyuq keçdi, yəqin xatirinizdədir. Soyuq küləklər, yağış, hətta sulu qar...
Yarım aylıq müddət mənimçün sanki bir ilə qədər uzun keçdi. Axı Nərgizsiz idim. Bilirdim ki, Nərgiz əməliyyatdan qayıdıb gələcəyim müddəti səbirsizliklə gözləyir.

15 günün tamamında Nərgizə yazdım ki, mən sağalmadım, məni unut. Bir də heç vaxt gəzə bilməyəcəm. Odur ki, bu dərdi ölənədək tənhalıqla keçirməyimlə daşımağa qərar vermişəm...
Nərgiz məni unutmalı idi, vəssalam. Ancaq o, yazırdı ki, nə olur olsun, səni unudan deyiləm. Mən sənə inanıram, inanıram ki, sən özündə güc tapacaqsan, Allah da kömək olacaq. Sən gəzəcəksən!
Yox, oyun tamamlanmalı idi. Mən Nərgizin həyatından çıxmalı idim. Son dəfə hıçqıra-hıçqıra ağlayaraq yazdım: «Əlvida, mənim Ninam. Bu, sənə yazdığım son kəlmələrdir. Xoşbəxt ol. Sən buna layiqsən...».
İki ay mövcud olan, ayaqları işləməyən, heç kəslə ünsiyyət qurmayan, sağalıncaya qədər danışmayacağına qərar verən, amma gözlənilmədən, bir təsadüf nəticəsində telefonla öz Ninasını tapan, onunla həyat sevgisinə qovuşan, onunla sevinən, onunla gülən, ağlayan, sabahkı günə inam əldə edən Ramin adlı 22 yaşlı bir oğlan hönkürərək ağlayırdı. Və göz yaşları içində sanırdı ki, heç vaxt yeriyə bilməyəcək...

**12-ci bölmə. Anar**

Aprelin ortalarında Nərgiz tamam məndən qaçmağa başladı. Zəngimi çox soyuq qarşılayır, SMS-lərimə cavab vermirdi. Çox kədərli idi, çox tutqun idi. Sanki dünyadan küsmüşdü.
Növbəti dəfə məni acıladı. Dedim, niyə mənimlə belə rəftar edirsən? Dedi, günahların çoxdur. Və ardınca da, etiraf etdi ki, bir şərtlə səni bağışlayacam, mənə Ramini tapmalısan. Dedim, bu mümkün deyil. Mən - qısqanc birisi, öz əllərimlə necə rəqibimi tapıb sənə qovuşdurum? Amma o, inad elədi ki, tapmalısan.
Onu da söylədi ki, sən tapmasan, özüm gedib küçə-küçə düşərək onu axtaracam. Hətta qardaşının iş yerinə – Bakcell-ə gedəcəm.
Mən bu an başa düşdüm ki, Ramin Nərgiz üçün necə qiymətli imiş. Mən başa düşdüm ki, Nərgiz heç cür onu unuda bilməyəcək. Yox, bu sevgi deyildi. Bu, özünə qapanmış, ümidsiz birinin yeganə ümidi ola bilmək, həyatdan küskünü həyatla barışdıra bilmək missiyasını davam etdirmək istəyi idi.
... Bəs mənim hisslərim? Axı mənim hisslərim o qədər saf, o qədər içdən gələn idi ki. Onları tapdalamaq, onları saya almamaq düzgün deyildi.
Həmin gecə səhərəcən ürəyimdə Nərgizlə danışdım:
Mənasız saydığım bir dövrdə təsadüfən gəldin həyatıma. Gözlənilmədən oldu hər şey. Hər şey dəyişdi. Çətini kimisə sevməyim idi. Özünlə gətirdin bütün sevincləri və sevgiləri. Qınadılar məni. Səni tanıdığım üçün qınadılar məni. Sənin bir başqa dünyanın insanı olduğunu, əslində bu dünyada yerinin olmadığını, mənimsə dəli olduğumu dedilər. Heç nə düşünmədin. Mənimçün bir sən vardın.
Bütün dünyama bəs edən bir sən.
Səninlə sevdim hər şeyi, səbr etməyi, bağışlamağı, laqeyd olmağı, düşündüklərimi deməyi. Əslində sevmədiyim hər şeyi səninlə öyrəndim.
Bilmirəm mənimçün kimsən? – dostmu, yoxsa...
Dəyərlisən mənimçün. Bircə... bunu bilirəm. Dünyamsan mənim, Dünyaya belə sığmırsan, acizlik çəkir səni saxlamağa dünya. Sənin gözlərinlə baxmağı sevirəm

bu dünyaya. Anlayırsan məni, Nərgiz? Başa sala bilirəm hisslərimi? O qədər dəyərlisən ki... Hisslərimin adını nə qoyacağımı bilmirəm. Ucuzlaşdırmağımdanmı qorxuram görəsən? Yoxsa səni itirəcəyimdənmi? Desələr ki, bu eşqdir, inanmaram. Ya da inanmamağım üçün israr edərəm. Bir ömür boyu yanımda deyil, beynimdə, ruhumda olmağını istəyirəm. Səninlə düşünməyi sevirəm, səninlə sən olmasan belə dərdləşməyi sevirəm.
Sevincimi elə beynimdəki, ürəyimdəki səninlə bölüşməyi sevirəm. Bəlkə bir gün təsadüfən, mənim sənə olan hisslərimin dərinliklərini duysan, qorxma, qürurlu ol, necə varsansa, bax, yenə eləcə qal. Adının mənası kimi. Axı Nərgiz – gözəl və qürurlu deməkdir. Sən də onun kimi həmişə qürurlu ol. Necə varsan, elə. Dəyişməsin heç nəyin. Düşüncələrin, duyğuların, çünki mən səni belə tanımışam. Unudulmaq istədiyini ağlına belə gətirmə. Unut hər şeyi. Hətta varlığım da belə nə vaxtsa əzab versə sənə, məni unut. Mən razıyam. Unut hər şeyi. Nə olursa olsun, kiminlə olursansa ol. Unutma ki, sən dualarımda hər gün, hər gecə dilə gətirdiyimsən. Bunu unutma...

***
Nərgiz məndən Ramini tapmağı diləyirdi. Ümidlə mənim bu xahişi yerinə yetirəcəyimi gözləyirdi. Amma bilmirdi ki, bu baş tutmayacaq. Mən Ramini tapmayacam. Ümumiyyətlə, heç kəs Ramini tapmayacaq...
Nərgiz bir şeydən xəbərsiz idi ki, Ramini heç vaxt görməyəcək...

**13-cü bölmə. Anar**
«Sevgi-əksər halda bizi uçuruma aparan bir gözübağlılıq və məsuliyyətsizlikdir. Ancaq sən sevənləri qorumalısan. Buna gücün çatmırsa, ən azından, onları qorumağı müqəddəs tanrıdan diləməlisən...»
Budur, iyun qapının kəndarındadır. Bir neçə gündən sonra dərslər başlayır. Biz yenə kollecə gedəcəyik, yenidən Nərgizi görəcəm. Amma o, məni danışdırmayacaq. Mən onun qarşısında bir görün necə günahlar törətmişəm. Əminə ilə münasibətdən başlayaraq Ramini tapmaq xahişini yerə vurmağıma qədər, bir görün ona nə qədər mənəvi zərbələr vurmuşam...
Mən onun qarşısında günahkar idim. Səhvdən səhv törətmişdim, onunla dostluq münasibətlərində ikən Əminəylə gizlin əlaqə saxlamağım faş olanda onun dərin nifrətini qazanmışdım.
Onun gözündəki ucalıqdan yerə düşməyim mənə sarsıdıcı zərbə olmuşdu. Düzdür, intihar həddinəcən çatmağıma dözməyib mənimlə barışmışdı, amma yanında gözü kölgəli idim...
Depressiyaya düşməyim, narkotikaya meylim, həbsxana, məcburi müalicə məcburiyyəti... Səhv dalınca səhvlər...
Hamısı Nərgizi itirməyim ucbatından idi əslində...
Mən Nərgizə yazırdım:
... Salam Mələk, necəsən?
... Zəng edə bilərəm? Darıxmışam səninçün.
... Onsuz da bilirəm, sən Ramini çox istəyirsən, mən artığam daha.

... Allah haqqı, bir də səni üzməyəcəyimə söz verirəm. Hər şeyi düzəldəcəm, Mələk.
... Dar şalvarla gödəkçə geyinmə, üstündən uzun bir şey geyin. Saçını da açıq qoyma. Bilirəm, sən bunları çox xoşlayırsan. Amma nə olar, eləmə.
... Səni düşünürəm. Sənin üçün yenə o yola düşsəm, inan peşman olmaram. Sən yanımda olsan, heç vaxt heç nədən üzülmərəm. Səndən dəyərli heç nə yoxdur həyatda.
... Dərslərə az qalıb. Həm istəyirəm iyun tez gəlsin, həm istəyirəm gəlməsin. Tez gəlməyini onunçün istəyirəm ki, səni görəcəm. Tez gəlməməyini isə ona görə istəyirəm ki, Raminin qayıtması da yaxınlaşır. Bu yadıma düşəndə çox qorxuram.
... Əgər qız oğlanı, yaxud oğlan qızı çox istəyirsə, qarşısındakı bunu dəyərləndirməyi bacarmalıdır. Amma bu işdə çox vaxt oğlan vicdansızlıq edir, qızın onu çox istəməsindən istifadə edir. Və nəticədə qız bunu başa düşəndə ya depressiyaya düşür, onda insanlara inamsızlıq yaranır. Ya da özünə qəsd edir?
... Məgər sən bilmirsən səni neçə çox istəyirəm? Sən bilmirsən, sən yazmayanda, yaxud gec-gec yazanda mən necə darıxıram? Bilmirsən mənlə soyuq rəftar edəndə bu mənə necə pis təsir edir.
... Nə olar, bir də Ramindən danışmayaq.
... Səni dünyalar qədər istəyirəm, mənim biricik dostumsan. Bilirəm ki, mənə nifrət etməzsən, özün elə-belə deyirsən. Sənin məndən zəhlən gedə bilməz heç vaxt...
... Sən həmişə bir cümlə cavab yazırsan. Sənin 20 mesajın mənim bir mesajımdır. Sənin yazdığın mesajların üzünü çıxartsan, 20 mesajından bir cümlə güclə düzəltmək olar...
... Yaxşı, mən sənlə razıyam. Ramin haqda düşünə bilərsən, onu fikirləşə bilərsən, hətta onu məndən çox da istəyə bilərsən. Bunlara qarışmıram. Amma əsla məni üzmə, nə olar...
... Söz verirəm, taparam Ramini sənin üçün...
... Ay daa, mən bu gün səsini eşidəcəm. Demək, 25 dəqiqədən sonra danışa biləcəyik? Nə yaxşı. Çox sevindim. Nəhayət ki...
... 15 dəqiqə qaldı.
... 10 dəqiqə qaldı, Mələk.
... Cəmi 2 dəqiqəyə zəng edirəm...
... Vaxtdır, zəng edim?
... Nə oldu, Mələk?
... Zəng edim?
... Danışa bilməyəcəyik? Axı niyə???
... Sən məni dəyişməyə çalışırsan, hə? Amma dəyişə bilməzsən, mən iki il öncə tanıdığın Anaram. Necə tanımışdınsa, elə də qəbul et...
... Nə istəyirsən et. Get gir internetə, get şəhəri gəz, kiminlə istəyirsən danış... Daha heç nə deməyəcəm...
... «Məni unut» yazırsan. Mən? Necə unudum? Sən bunu tələb edə bilməzsən. Sən öz ürəyinə hakimsən. Amma mənə zor edə bilməzsən.
... Yadında, bir dəfə mənə demişdin ki, yıxılan adamı arxadan itələmək olmaz, əksinə, əl verib qaldırmaq lazımdır. Çünki hər bir insanın dəstəyə ehtiyacı var. İndi

də mən yıxılmışam. Çox xahiş edirəm, mənə əl ver, qalxım. Axı mənim də köməyə ehtiyacım var.
... Mənimlə çox ürəksiz danışırsan. Axı bu, məni incidir.
... Nə olar, belə etmə...
... Etmə, nə olar.
... Məni də çox istəməyin üçün nə etməliyəm? Mən də ayaqlarımı itirməliyəm?

**14-cü hissə**
... Yaxşı, mən sənlə razıyam. Ramin haqda düşünə bilərsən, onu fikirləşə bilərsən, hətta onu məndən çox da istəyə bilərsən. Bunlara qarışmıram. Amma əsla məni üzmə, nə olar...
... Söz verirəm, taparam Ramini sənin üçün...
... Ay daa, mən bu gün səsini eşidəcəm. Demək, 25 dəqiqədən sonra danışa biləcəyik? Nə yaxşı. Çox sevindim. Nəhayət ki...
... 15 dəqiqə qaldı.
... 10 dəqiqə qaldı, Mələk.
... Cəmi 2 dəqiqəyə zəng edirəm...
... Vaxtdır, zəng edim?
... Nə oldu, Mələk?
... Zəng edim?
... Danışa biləcəyik? Axı niyə???
... Sən məni dəyişməyə çalışırsan, hə? Amma dəyişə bilməzsən, mən iki il öncə tanıdığın Anaram. Necə tanımışdınsa, elə də qəbul et...
... Nə istəyirsən et. Get gir internetə, get şəhəri gəz, kiminlə istəyirsən danış... Daha heç nə deməyəcəm...
... «Məni unut» yazırsan. Mən? Necə unudum? Sən bunu tələb edə bilməzsən. Sən öz ürəyinə hakimsən. Amma mənə zor tətbiq edə bilməzsən.
... Yadında, bir dəfə mənə demişdin ki, yıxılan adamı arxadan itələmək olmaz, əksinə, əl verib qaldırmaq lazımdır. Çünki hər bir insanın dəstəyə ehtiyacı var. İndi də mən yıxılmışam. Çox xahiş edirəm, mənə əl ver, qalxım. Axı mənim də köməyə ehtiyacım var.
... Mənimlə çox ürəksiz danışırsan. Axı bu, məni incidir.
... Nə olar, belə etmə...
... Etmə, nə olar.
Onun cavabları bu cür olurdu:
... Yox.
... Hə.
... Nə bilim, görək də.
... Yaxşı.
... Dedim olmaz!
... Bu gün alınmır, sabah danışarıq...

... Mənim haqqımda heç nəylə maraqlanma.
... Lap istədiyim var, bunun sənə dəxli yoxdur.
... Dedim ki, yox.
... Ok.
... Olmaz, evdəyəm.
... Elə bir şey yoxdur.
... Mən sənlə tanış olmaqda böyük səhv etdim...
Və mayın 12-də ona elə bir şeylər yazdım ki, hansı hala düşücəyini qabaqcadan zənn etmək asan idi. Yazdım ki, mənimlə soyuq danışdığını, tez-tez «otboy» elədiyini görəndə ürəyimə qorxu düşdü.

Səni itirmək qorxusu bütün varlığımı bürüdü. Mənim başqa çıxış yolum qalmamışdı. Məcbur olub getdim Ramingilə. Dedim sənə görə Nərmin məni ürəyindən silib. O daha heç vaxt mənimlə isti münasibət qurmayacaq, saatlarla ürəklə danışmayacaq... Daha heç vaxt mənə «səni çox istəyirəm» deməyəcək. Kəsəsi, daha heç vaxt əvvəlki kimi olmayacaq...
Nərminə dedim ki, Raminə səninlə ünsiyyət qurmağı qadağan etdim...
Bununla Nərminin mənə olan münasibətləri tam olaraq pozuldu, tamamilə onun gözündən düşdüm. Qaş düzəldən yerdə vurub göz də çıxartdım...
Günlər ötdükcə Nərminin məndən necə də sürətlə uzaqlaşdığının şahidi olurdum. Saatlarca mənlə yanaşı olan, hey zəngləşən, hətta gecələr belə mesajlaşan bir qızın, bu qədər mənə doğma, məhrəm ürəyimi yerindən oynadan bir qızın bu laqeydliyi və soyuqluğu içimi didir, mənə rahatlıq vermirdi.
Qollarıma iri hərflərlə «Nərmin» tatuirovkası döydürmüşdüm. Gələcək həyat yoldaşım kim olacaqdısa, biləcəkdi ki, həyatımda başqası olub, onu dəli istəklə istəmişəm...
Gizlədə bilməyəcəkdim axı heç nəyi...
İndi telefonla kəlmə belə kəsmirdi mənlə. Yalvarırdım, yaxarırdım. Bircə kəlmə səsini eşitmək istədiyimi bildirirdim.

**15-ci hissə**
Mən hər şeyi sizə – qəzetçilərə danışıram. Amma yenə də bəzi məqamlarda aramızda anlaşılmazlıqlar yaranır. Siz təkidlə mənimlə görüşməyi istəyirsiniz. Deyirsiniz ki, Anar hər şeyi gəlib redaksiyada danışır, amma mən – Ramin yalnız SMS yazıram. Deyəndə gəzə bimədiyimi ki, bilirsiz, onda da deyirsiz telefonla danışaq...
Yox, elə bu cür yaxşıdır. Bu əhvalatın sonu necə olacaq bunu bilmirəm. Son qərarı Nərmin verəcək.
Amma Ramin doğrudan da bizə gəldi, mənə hədə-qorxusunu görsəydiniz, mat qalardınız. Çarpayıda qalan, gəzə bilməyən bir kəsə qadağan etdi Nərminlə yazışmağı. Dedi, bir də o qızın adını tutsan, özünü ölmüş bil. Başa salmağa çalışdım ki, o qız mənimçün bu mənasız və ümidsiz həyatımda son tutalqadır. Başa salmağa çalışdım ki, haqsız hərəkət edirsən, seçim Nərminin olmalıdır. O, kiminlə istəsə, onunla da qalmalıdır.

Çarpayımın baş tərəfini yerindən qaldırıb silkələyə-silkələyə bağırdı:
- Səni də məhv edərəm, onu da!
Mən mənən qorxaq birisi deyiləm. Qəzaya düşməsəydim, sağ-salamat olsaydım, Anar kimisinin beş-altısını bir-birinə qatardım... Amma indiki vəziyyətin çıxılmaz idi. Bu insan mənə rahatca xətər toxundura bilərdi. Hətta onun gəlişinə qapımızı açmayacağımız təqdirdə «şüşəni qırıb eyvandan evə daxil olmaq», «benzin töküb qapını yandırmaqla evə soxulmaq» kimi hədə-qorxularını da bildirmişdi...
Mən tezliklə ayağa durmaq, bu şəxsdən mənə yaşatdığı acılara görə cavab istəmək ümidləriylə Tanrıma yalvardım...
Məhz Nərminlə danışmaq üçün aldığım nömrəni telefondan çıxartmalı və susmalı idim, demək...
Demək, Nərminin həyatından çıxırdım. Necə gəlmişdimsə, eləcə: səssis və səmirsiz...
Gözlərimdən yaş axa-axa onun çox sevdiyi «Sonuncu ölən ümidlərdir» kitabından bu misraları SMS-ə köçürməyə başladım:

Bir vaxt sən mənimdin,
bir ürəkdik biz
Təzə sevdalarla qəlbimiz dindi.
Sanki, parçalandı planetimiz,
Ayrı qütblərdə yaşarıq indi.

Eşqim okeandır, mən isə ada,
Yaxına qoymadım şaxtanı, qarı.
Neçün qərq elədi məni dünyada,
Hicran dalğaları, hicran suları.

Mənə sənin eşqin, qəlbin gərəkdir,
Çəksin duyğuları ürək tarıma.
Könül nə arzular, bilirsənmi bir,
Əllərin toxunsun qoy saçlarıma.

Sənsiz sevinmərəm, sənsiz gülmərəm,
Qəlbim bir quruyan dənizdir axı.
Səni özgəsindən ala bilmərəm,
Səadət hamıya əzizdir axı.

Bir bağdam, başımda oynar buludlar.
Dumanım olmusan, çənim olmusan.
Sevən ürəyimdə bir təsəlli var,
Bir zaman, bir zaman mənim olmusan!

Yazdım. Nömrəni çıxartdım. Və onun ömründən çıxdım. Gözümdən axan yaşlar bir anda bütün yatağımı yamyaş etmişdi...

**16-cü hissə. Anar-Ramin**

Artıq mayın sonlarıdır, kollecin açılmasına lap az qalır... Vaxt daraldıqca içimi qırıb-dağıdan bir sirr məni daha da rahatsız edir...

Yox, daha bu sirri içimdə gizlətməyim mümkünsüzdür... Deyəsən, vaxt yetişdi, mən etiraf etməli olacam. Bu etirafım ondan ibarətdir ki... Ondan idarətdir ki... Nərminlə münasibətləri əvvəlki məcrada saxlamaq qeyri-mümkün olanda, mən acı bir həqiqəti başa düşmüşdüm. Başa düşmüşdüm ki, Nərminsiz yaşaya bilmərəm... İlk öncə Əminəyə görə onun üzünə çıxa bilmirdim. Ardınca pis yola qurşanmağım, sonra xəstələnməyim... Hər dəfə bir şey mənə mane olurdu ki, Nərmini həyatıma qaytarım. Get-gedə aramızdakı uçurum dərinləşir, mənim bu uçuruma düşüb məhv olmağım reallaşırdı... Hər gün yalnız beynimdə Nərmin idi. Necə edim ki, onu əbədi itirməyim. Yalnız qoruyub-saxladığım SMS-lərinə baxmaq, birgə dinlədiyimiz musiqiləri dinləmək, birgə oxuduğumuz kitabları təkrar-təkrar oxumaq, birgə keçdiyimiz yolları qarış-qarış gəzmək idi təsəllim...

... Və bir gün qəti qərara gəldim. Bir az pul yığmışdım, bu pula bir bahalı «cin» nömrə alıb o nömrə ilə Nərminə mesaj yazdım. Adımın guya Ramin olduğunu bildirdim, yazdım ki, sizinlə dost olmaq istəyirəm. Bəli, bəli. Əslində, heç Ramin adlı şəxs yoxdur, mənim uydurduğum yalançı obrazdır. İlk öncə Nərmin etiraz elədi. Bu, təbiidir. Onun Anara – yəni mənə olan istəyi böyük idi. Odur ki, Ramini – digər «mən»i yaxına buraxmamalı idi. Amma xasiyyətinə bələd olduğum, zəif damarını bildiyim, istək və arzularından xəbərdar olduğum üçün inanırdım ki, gec-tez onu yola gətirəcəm. Həmin anda nə üçün bu qərarı verdiyimin mahiyyətini belə anlamırdım. Sadəcə, mənə dünyalarca əziz olan Nərmini itirməyimin acı nəticələri məni vadar etmişdi ki, yenə ona qayıdım. Di gəl, özüm kimi, yəni Anar kimi yox, bir başqası kimi yox, məhz Ramin kimi. Şikəst, dəstəyə ehtiyacı olan birisi kimi. İndi mən yenidən onunla birgə idim. Həm bu birgəliyin sərbəstliyi məni xoşbəxt edirdi, həm də başqa şəxs adı altında yenidən dəli qısqanclıqla onu ətrafdakılardan qoruyurdum... Sonunun necə olacağını düşünmədən bu oyuna girmişdim... Və bəzən, Ramin obrazında ikən doğrudan da ayaqlarımın giziltisini hiss edir, ayağa durub gəzə bilməyəcəyimdən qorxurdum... Bəzən Nərmin məni pis vəziyyətdə qoyur, gah Ramini, gah Anarı tapmağı tapşırır, oyunun şərtlərini pozmağıma səbəb olurdu. Tez-tez hansı obrazda olmağımı da unudurdum. Ancaq bununla belə, oyunu davam etdirirdim...

Bu da son.

İyun kəndardadır. Kollecdə dərslər bərpa olunur. Ramin oyundan çıxıb, indi, sadəcə, bütün bunları Nərminə danışmaq qalır. Bu qəddar reallıq Raminin oyundan çıxmasını zəruri etmişdir. Ola bilərdi ki, hər şeyi biləndən sonra Nərmin mənə nifrət edəcək, onun hissləri ilə oynamağımı, onu aldatdığımı bağışlamayacaq. Amma bağışlamalı idi. Bu əhvalat mənim ona olan istəyimin, sadəcə, bir sübutudur, əslində. O, Anarı dünyalarca istəyirdi, Anardan yüksək tutduğu tək adam Ramin oldu. Biləndə ki, Ramin də elə Anardır, biləndə ki bu qədər bağlandığı, bu qədər çox istədiyi şəxs elə Anarın özüdür, bunu biləndə, sadəcə, onu itirməmək üçün dostunun nələrə getdiyindən təsirlənəcək...

Mən hər şeyi səninlə yenidən birlikdə olmaq üçün etdim, Nərmin.

Necə ki, mən özümdə həm Anarı, həm Ramini yaşatmışdım, eləcə də sən özündə həm Mələyi, həm Ninanı yaşatdın. İndi biz yenə də dördlükdə olacağıq: Anar və Mələk, həm də Ramin və Nina.
Sadəcə, Anar və Mələk cismən yaşayacaqlar, Ramin və Nina isə ruhən.

P.S. Doğrusu aylardır ki, bu yazı qəzetdə gedirdi. Anarın etirafı bizə tam gözlənilməz oldu. Onu yalançılıqda suçlayıb yazının davamını verməmək istədik. Ancaq hər halda, verəsi olduq. Qoy oxucular sonluğun necəliyini bilsinlər...
Sonda Anarın bir etirafını da qeyd etmək yerinə düşərdi: «Mən iyirmi iki il Anar olaraq həyatda yaşadım, həyatda özümü tapa bilmədim. Daim tərəddüdlər, səhvlər, sonsuz axtarışlar və nəticəsizliklər burulğanı... Ancaq iki aylıq Ramin obrazına girməklə həyatda özümü tapdım. Mən Ramini çox sevdim. Və son qərar zamanı yetişəndə Nərmini Ramin-Anar seçimi qarşısında qoyarkən, sidqi ürəkdən deyirəm, az qaldı ki, Anar olaraq özümü gizlədib məhz Ramin olaraq yaşayım... Amma heyif ki, bu mümkün deyildi.

**SON**